www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 oktyabr 2016-cı il Çərşənbə № 219 (6540) Qiymıəti 60 qəpik

**Xəbər**

**Bakıda supermarketin direktor müavini özünü asdı**

yazısı səh.15-də

**Gündəm**

**Amerika ilə iqtidarın ortaq komissiyası alınmadı - səfir açıqladı**


Daniel Bayer

Lakin problemlərə baxmayaraq, ABŞ və ATƏT hakimiyyətlə anlaşmaq istəyir; Sülhəddin Əkbər: "Azərbaycanla ona görə anlaşmaq istəyirlər ki..."

yazısı səh.5-də

**Cahangir Hacıyevin xanımı Azərbaycana təhvil verilməyəcək - səbəblər**

yazısı səh.7-də

**Zavodda baş verən yanğın niyə gizlədilir?**

yazısı səh.14-də

**Elman Rüstəmov banklara nəzarəti itirib**

yazısı səh.15-də

**Papa ərazi bütövlüyü məsələsində niyə ayrı-seçkilik etdi?**

yazısı səh.12-də

**Neftçilərə mobil telefon qadağası**

yazısı səh.10-da

**Serj Sərskisyana qarşı müxalifət güclənir**

yazısı səh.12-də

**Təhsil ocaqları "yanır" - hər gün bir ağır hadisə...**

yazısı səh.10-da

**"İsgəndər"lər İrəvanın öz başında partlayacaq - erməni politoloqdan xəbərdarlıq**

yazısı səh.9-da

**İlqar Məmmədov həbsxanadan açıqlama yaydı - REAL partiyaya çevrilir**

yazısı səh.7-də

**Akif Çovdarov güclü mühafizə altında məhkəməyə gətirildi**

yazısı səh.4-də

## Marketlərdə süni bahalığı kimlər yaradır?

# HÖKUMƏT "QİYMƏT QİYAMÇILARI"NI CƏZALANDIRA BİLƏR

Bəzi işbazlar və şirkətlər Nazirlər Kabinetinin qərarını sabotaj edərək ərzaq məhsullarının qiymətini bahalaşdırıb, deputat müvafiq qurumları ölçü götürməyə çağırdı




yazısı səh.6-da

## "Mətanət İsgəndərli MTN-in agenti olub" - Elşad Abdullayevdən şok iddia

Sabiq rektor itkin düşmüş qardaşı ilə bağlı yenə müğənnini ittiham etdi; əməkdar artist mətbuat katibinə danışmaq qadağası qoyub

yazısı səh.7-də



*Fərəc Kərimli azadlıqda danışdı:*

**"Xeyli istirahət etmişəm..."**

yazısı səh.4-də



**İlham Rəhimov iki dənizin hüquqşünaslarını Bakıya topladı**

yazısı səh.3-də



**Deputat Mirzəcan Xəlilov barəsində şok məlumatlar**

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016



## Kommersiya sirri hesab olunan məlumatları kimlər əldə edə bilər-sərəncam

**Prezident İlham Əliyev "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında fərman imzalayıb.**

APA-nın məlumatına görə, "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" 2003-cü il 23 oktyabr tarixli fərman, "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə" 2003-cü il 23 oktyabr tarixli fərmanında dəyişiklik edilməsi haqqında" 2010-cu il 24 noyabr tarixli fərman və "2003-cü il 23 oktyabr tarixli 954 nömrəli fərmanla təsdiq edilmiş "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı"nda dəyişikliklər edilməsi haqqında" 2016-cı il 18 aprel tarixli fərman ləğv edilib.



## Ölkədə 1 milyard 592,2 milyon manatlıq problemli kredit var

**Azərbaycanda vaxtı keçmiş kreditlərin ümumi həcmi 2016-cı il sentyabrın 1-nə 1 592,9 mln. manat təşkil edib və bununla da yeni tarixi rekord müəyyənləşdirib. "Report" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, avqustun 1-i ilə müqayisədə 5,9% və yaxud 88,5 mln. manat çoxdur.**

Problemli kreditlər ilin əvvəlinə nisbətən 5,6%, illik müqayisədə isə 19,4% artıb.

Avqustun sonunda vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində payı 9,5% olub. Bu nisbət iyulun sonunda 9%, 2015-ci ilin sonunda 6,9%, ötən ilin iyul ayının sonunda isə 6,6% olub.

## Dadaş Rzayev rus generallarının olduğu məclisdə huşunu itirdi

**Azərbaycanın keçmiş müdafiə naziri, Silahlı Qüvvələrin Ehtiyatda olan Zabitlər Konfederasiyasının sədri general-mayor Dadaş Rzayevin səhhətində ciddi problemlər yaranıb.**

Missiya.Az-ın əldə etdiyi özəl məlumata görə, general-mayor Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalının reanimasiya şöbəsinə yerləşdirilib.

Məlumata görə, keçmiş nazir bir neçə gün öncə qonaqları olan rusiyalı generallara ziyafət verib. Elə həmin məclisdə onun səhəti qəfil pisləşib. General huşunu itirərək yerə yıxılıb. Rzayev təcili tibbi yardım maşını ilə qonaqlıqdan birbaşa xəstəxanaya aparılıb.

Yaxınları keçmiş nazirin sağlıq durumunun hazırda ağır olduğunu bildiriblər.


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Şeyxin adamının məhkəməsi yekunlaşır

**Bakı Ağır Cinayətlər Məhkəməsində ilahiyyatçı, Qafqaz Müsəlmanları İdarəsinin sektor müdiri işləmiş Elşən Mustafaoğlunun məhkəmə prosesi keçirilib.**

APA-nın məlumatına görə, hakim Səbuhi Hüseynovun sədrlik etdiyi proses qapalı olub.

Vəkil Əfqan Məmmədovun verdiyi məlumata görə, cinayət işi üzrə məhkəmə istintaqı tamamlanıb. Prokuror çıxış üçün məhkəmədən vaxt istəyib.

Məhkəmə prosesi oktyabrın 18-də davam etdiriləcək.

Qeyd edək ki, E.Mustafaoğlu 2014-cü ildə həbs olunub. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsinə əsasən təqsirləndirilir.



## Putin oktyabrın 10-da Türkiyəyə gedəcək

**Rusiya prezidenti Vladimir Putin oktyabrın 10-da Türkiyəyə səfər edəcək.**

Bu barədə Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib.

O, Putinin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla danışıqlar aparacağını və Ümumdünya Enerji Konqresində çıxış edəcəyini söyləyib: "Səfər oktyabrın 10-da baş tutacaq. Ümumdünya Enerji Konqresində çıxış və ikitərəfli görüşlər olacaq".

**Qeyd edək ki, Ümumdünya Enerji Konqresi oktyabrın 9-13-də İstanbulda keçiriləcək.**

## "Azerspace-2" peyki gələn ilin sonunda orbitə buraxılacaq

**Azərbaycanın "Azerspace-2" milli telekommunikasiya peyki 2017-ci ilin sonunda orbitə buraxılacaq.**

Bunu "Report"a açıqlamasında İstanbulda (Türkiyə) keçirilən XXVI Ümumdünya Poçt Konqressində iştirak edən Azərbaycanın rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib.

Nazir deyib ki, beynəlxalq tədbir çərçivəsində Türkiyənin nəqliyyat, dənizçilik və xəbərləşmə naziri Əhməd Arslanla görüşü zamanı da bu məsələ müzakirə olunub.

"Həmçinin, poçt sahəsində birgə əməkdaşlıq etmək barədə fikir mübadiləsi apardıq. Gələcəkdə isə fiber-optik xidməti sahəsində birgə işçi qrupunun yaradılması nəzərdə tutulub. Bütövlükdə, gələcəkdə bütün sahələrdə əməkdaşlığı əlaqələrimizi genişləndirəcəyik", - deyə R.Quluzadə əlavə edib.

Xatırladaq ki, ikinci telekommunikasiya peyki - "Azerspace-2"nin 45° şərq uzunluğu orbital mövqeyinə çıxarılması və qarşıdakı illərdə çox yüksək ayırdetməli Yer səthinin məsafədən müşahidə peyki əldə edilməsi planlaşdırılır.

**Ümumdünya Poçt Konqressi sentyabrın 19-da işə başlayıb və oktyabrın 7-dək davam edəcək. Toplantıda İttifaqın inkişaf perspektivləri müzakirə edilir, 2016-2020-ci illərdə Universal Poçt İttifaqı İnzibati Şurasının sədrliyinin Türkiyəyə təhvil verilməsi nəzərdə tutulub.**



## Zakir Həsənov Özbəkistana gedib

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Özbəkistana rəsmi səfəri çərçivəsində bu ölkənin birinci prezidenti İslam Kərimovun məzarını ziyarət edib, üzərinə gül dəstələri qoyub.**

Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyətinin Özbəkistana səfəri zamanı iki ölkə arasında hərbi sahədə əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edilməsi nəzərdə tutulub.

## Gəncəli siyasətçi Rusiyada şəhər meri seçildi

**1975-ci ildə Gəncədə anadan olmuş Aleksey Koşayev Rusiyanın Ulyanovsk vilayətinin Dimitrovqrad şəhərinin meri seçilib. Virtualaz.org "RİA Novosti"yə istinadən xəbər verir ki, Koşayevin namizədliyi "Vahid Rusiya" partiyasının yerli şöbəsinin konfransında səs çoxluğu ilə təsdiq edilib.**

## Türkiyədə daha 88 hərbçi saxlanılıb

**Türkiyədə Fətullahçı Terror Təşkilatı (FETÖ) ilə bağlı aparılan istintaq çərçivəsində bu gün Konya Hərbi Hava Bazasında 21-i yüksək rütbəli zabit olmaqla, 56 nəfər saxlanılıb.**

"Hürriyet" yazır ki, hərbi çevriliş cəhdindən sonra Konya Prokurorluğunun apardığı istintaq çərçivəsində saxlanılan hərbçilərin Konya Hərbi Hava Bazasındakı otaqlarında axtarışlar davam edir. Saxlanılan şəxslər Türkiyənin Konstitusiya quruluşunu zorla dəyişməyə cəhd, silahlı üsyan, FETÖ terror təşkilatına üzv olmaqda ittiham edilirlər.

Əskişəhər vilayətində və daha bir neçə şəhərdə keçirilən əməliyyat tədbirləri zamanı isə əksəriyyəti Hərbi Hava Qüvvələrinin üzvü olan 33 nəfər saxlanılıb.

Qeyd edək ki, Türkiyədə 15 iyulda hərbi çevriliş cəhdindən sonra Konya Hərbi Hava Bazasının komandiri general Haluk Şahar İstanbulda həbs edilib. General Haluk Şaharın hərbi çevriliş gecəsi bazada olan polkovnik Mustafa Ertürkə 4 "F16" qırıcı təyyarəsini hazır vəziyyətdə saxlaması barədə tapşırıq verdiyi üzə çıxıb. Konya Hərbi Hava Bazasında xüsusi təyinatlıların komandiri Yılmaz Bahar isə həmin gün hər biri 7 nəfərdən ibarət olmaqla, 3 dəstə ilə İstanbulda Hərbi Dəniz Qüvvələrinin komandanı və digər generalların olduğu Moda Dəniz Klubuna basqında iştirak edib.

## Məmurlar cinayət məsuliyyəti daşıyacaq, əgər...

**Azərbaycanda məqsədli büdcə fondları və büdcədən kənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə edilməməsi cinayət məsuliyyəti yaradacaq. Milli Məclisdən APA-ya verilən məlumata görə, bununla bağlı "Büdcə sistemi haqqında" qanuna əlavələr edilir.**

Qanunun 5.3-cü maddəsinə edilən əlavəyə görə, məqsədli büdcə fondlarının vəsaitinin təyinatı üzrə istifadə edilməməsinə görə vəzifəli şəxslər Cinayət və İnzibati Xətalar məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyacaqlar.

Qanuna daha bir əlavə kimi təklif edilən maddə 27.6-a görə isə "Büdcədənkənar dövlət fondlarının vəsaiti təyinatı üzrə istifadə olunmalıdır və onların başqa məqsədlər üçün xərclənməsinə yol verilmir. Həmin vəsaitin təyinatı üzrə istifadə edilməməsinə görə vəzifəli şəxslər Cinayət və İnzibati Xətalar məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar".

**Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və oktyabrın 14-də müzakirəyə çıxarılacaq.**



## Zakir Fərəcov "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib

**Sumqayıt şəhərinin icra başçısı Zakir Fərəcov II dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.**

APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında sərəncam imzalayıb.

## Azər Vahabzadənin səlahiyyət müddəti başa çatıb

**İki rayon prokurorunun səlahiyyət müddəti başa çatıb. APA-nın məlumatına görə, Qobustan rayon prokuroru Azər Vahabzadə və Xızı rayon prokuroru İlham Məmmədovun səlahiyyət müddətləri sona yetib.**

Onlar hazırda həmin vəzifələri müvəqqəti icra edirlər. Adıçəkilən şəxslərin Qobustan və Xızı rayon prokuroru vəzifələrini icra etmələri ilə bağlı Baş Prokurorluğun saytında da məlumat yerləşdirilib.

Yaxın vaxtlarda hər iki şəxsin yeni təyinatı ilə bağlı baş prokuror Zakir Qaralov tərəfindən əmr imzalanacağı gözlənilir.

Qeyd edək ki, Azər Vahabzadə xalq şairi Bəxtiyar Vahabzadənin oğludur. O, 2011-ci ildə Qobustan rayon prokuroru təyin olunsa da, uzun müddət işə çıxmayıb. Mətbuatda A.Vahabzadənin həmin təyinata etiraz olaraq işə çıxmadığı qeyd olunsa da, Baş Prokurorluğun yaydığı məlumatda onun səhhəti ilə əlaqədar bir müddət vəzifəsini icra etmədiyi bildirilmişdi.

## 369 şəxsə ölkədən çıxmaq yasağı

**Vergilər Nazirliyi vergi borcuna görə ölkədən getmə hüququ məhdudlaşdırılmış fiziki şəxslərin adını açıqlayıb.**

Nazirlikdən "APA-Economics"ə verilən məlumata görə, 04 oktyabr tarixinə vergi borcu olduğuna görə 369 şəxsin ölkədən çıxması qadağan edilib. Bu şəxslər arasında xarici ölkələrin 5 vətəndaşı da var.

**Nazirlik vergi ödəyicilərinin borcunu açıqlamayıb.**

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016





# İki dəniz ölkələrinin hüquqşünasları Bakıda toplaşdı

## Qara və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının prezidenti İlham Rəhimov: “Qurum heç bir ölkənin daxili və xarici siyasətinə qarışmadan iş adamlarının problemlərinin aradan qaldırılmasına yardımçı olmaq niyyətindədir”

**“Qara və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının yaradılmasında əsas məqsəd bu coğrafiyaya daxil olan ölkələrində biznes mühitinin yaxşılaşdırılmasına hüquqi dəstək verməkdir. Qurum heç bir ölkənin daxili və xarici siyasətinə qarışmadan təmsilçi ölkələrdə fəaliyyət göstərən iş adamlarının problemlərinin aradan qaldırılmasına yardımçı olmaq niyyətindədir.**

Düşünürük ki, fəaliyyətimiz irəlilədikcə bu faydalı təşəbbüsün coğrafiyası da genişlənəcək”. Bu sözləri **hüquq elmləri professoru, Qara və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının prezidenti İlham Rəhimov** qurumun oktyabrın 4-də Bakıda keçirilən toplantısında deyib.

*“Hilton” hotelində keçirilən toplantıya Azərbaycanla bərabər Rusiya, Türkiyə, Bolqarıstan, Serbiya və Belarusun hüquq ictimaiyyətinin tanınmış simaları qatılıb. Bu sırada Qara dəniz və Xəzər dənizi ölkələri Beynəlxalq Fondunun prezidenti, hüquqşünas, yazar Çingiz Abdullayev, professor Rüstəm Məmmədov, Azərbaycan ədliyyə nazirinin müavini Azər Cəfərov, Milli Elmlər Akademiyası İnsan Haqları İnstitutunun direktoru Aytən Mustafayeva, Bolqarıstan Hüquqşünaslar Birliyinin başqanı Vladislav Slavov, “Slavyane” Fondunun prezidenti Zaxari Zaxariyev, Beynəlxalq Slavyan Elm, Təhsil, Mədəniyyət və İncəsənətlər Akademiyasının və Rusiya Hüquq Universitetləri Assosiasiyasının prezidenti Cergey Baburin, JUSTO-nun kafedra müdiri Yuri Qolik, Kaluqa vilayətinin senatoru, Rusiya Federasiya Şurasının Konstitusiya hüququ, hüquq və məhkəmə məsələləri, vətəndaş cəmiyyətinin inkişafı Komitəsi sədrinin müavini Aleksandr Aleksandrov, Türkiyə prezidentinin hüquq məsələləri üzrə müşaviri Özləm Zəngin, Avrasiya Təşəbbüsləri və Əməkdaşlıq Assosiasiyasının prezidenti Toğrul Vəli, Türkiyə Hüquqşünaslar Birliyi İdarə Heyətinin sədri Gürşad Karakabey, Belorus Hüquqşünaslar Birliyinin sədri Viktor Komenkov, Serbiya Təsərrüfat Palatası arbitrajının sədri Aleksandr Çiriç də olub.*





### Assosiasiyanın saytı və dərgisi yaradılacaq, Bakının mərkəzində hüquq ədəbiyyatı üzrə ixtisaslaşan kitab mağazası açılacaq







Assosiasiyanın prezidenti İ.Rəhimov bildirib ki, qurumun təşəbbüs toplantısı müəllifi olduğu “Cinayət və cəzanın fəlsəfəsi” əsərinin Bolqarıstanda keçirilən təqdimat mərasimində baş tutub: “Sofiyada təsis toplantısı keçirildi və Bolqarıstandan olan həmkarlarımız qurumun Nizamnaməsinin və Əsasnaməsinin hazırlanmasını üzərlərinə götürdülər. Sənədlər artıq hazırdır. Ümid edirəm ki, toplantı iştirakçıları əsas prinsipləri dəstəkləyəcək və sənədlərlə bağlı konkret təkliflərlə çıxış edəcəklər”.

Sonra söz Bolqarıstan hüquqşünaslarına verilib. **Bolqarıstan Hüquqşünaslar Birliyinin başqanı Vladislav Slavov** və **“Slavyane” Fondunun prezidenti Zaxari Zaxariyev** yığıncaq iştirakçılarına qurumun qeydiyyatı və təsis sənədləri ilə bağlı geniş bilgi verib, səslənən təklifləri qəbul ediblər. Düzəlişlərdən sonra sənədlər qəbul edilib. Qərar gəlinib ki, təsis toplantısı Sofiyada keçirildiyi üçün qurum Bolqarıstanda qeydiyyata alınsın, üzv ölkələrdə isə nümayəndəliklər yaradılsın.

**Professor İ.Rəhimov onu da bildirib ki, hüquq ictimaiyyətinin elmi yaradıcılığının dərc edilməsi məqsədilə Assosiasiyanın saytı və dərgisi yaradılacaq.** Bundan başqa, professor yaxın günlərdə Bakının mərkəzində hüquq ədəbiyyatı üzrə ixtisaslaşan kitab mağazasının açılacağını da anons edib. Onun sözlərinə görə, bu, Azərbaycanda bir ilkdir və həm hüquq ictimaiyyəti, həm də tələbələr mərkəzdən dünyanın ən müxtəlif ölkələrində çap edilən hüquq ədəbiyyatının əldə edə biləcəklər.

**Beynəlxalq Slavyan Elm, Təhsil, Mədəniyyət və İncəsənətlər Akademiyasının və Rusiya Hüquq Universitetləri Assosiasiyasının prezidenti Cergey Baburin** quruma yeni üzvlər qəbul edilməsi, İdarə Heyətinin və komissiyaların formalaşdırılması və Assosiasiyanın beynəlxalq qurumlarla əməkdaşlığı üzrə konkret təkliflərlə çıxış edib.

Azərbaycan təmsilçiləri qurum üzvlərini Xəzərin bölünməsi məsələsini də gündəmə gətirməyə çağırıb. **Bakı Dövlət Universitetinin professoru Firudin Səməndərov** bildirib ki, uzun illərdir Xəzərin bölünməsi üzrə hökumətlərarası danışıqlar davam edir, ancaq nəticə əldə edilmir. Bu hüquqi qeyri-müəyyənlik isə zaman-zaman hövzə ölkələri üçün problemlər yaradır.

**AMEA İnsan Haqları İnstitutunun direktoru Aytən Mustafayeva** qurum üzvlərini tibbi hüququn yaradılması işinə dəstək verməyə çağırıb: “Bir sıra ölkələrin, o sıradan Azərbaycanın qanunvericiliyində bu sahədə boşluqlar var. Düşünürəm ki, Assosiasiyada təmsil olunan hüquqşünaslar uğurlu beynəlxalq təcrübənin milli qanunvericiliklərdə də əks olunması üçün konkret təşəbbüslərlə çıxış edəcək və hökumətlərlə işbirliyi quracaq”.

**Serbiya Təsərrüfat Palatası arbitrajının sədri Aleksandr Çiriç** bildirib ki, dünyada ticarətdən üstün diplomatiya yoxdur: “Bu gün azad ticarət zonalarının, əlverişli investisiya mühitinin yaradılması, ticarətin liberallaşdırılması inkişaf etmiş ölkələr üçün prioritetdir. Çünki bunlar ölkələrarası münasibətlərin möhkəmlənməsi, yeni iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi deməkdir. Düşünürəm ki, Qara dəniz və Xəzər dənizi hövzələri ölkələri də bu siyasəti davam etdirəcəklər”.

**Tanınmış vəkil Aslan İsmayılov** isə Assosiasiyanın daha çox praktik fəaliyyət göstərən qurum kimi faydalı olacağını düşünür: “Həm Qara dəniz, həm də Xəzər dənizi hövzəsi faktiki konfliktlər zonasıdır. Konfliktləri ya hərb, ya da danışıqlar yolu ilə nizamlana bilər. Hərbi yol seçiləndə dövlətlər hərbi birliklər yaradır, dinc yollara üstünlük veriləndə isə hüququn təkmilləşdirilməsi üzrə qurumlar meydana gəlir. Konfliktlərin olması həm də o anlama gəlir ki, regionda fəaliyyət göstərən iş adamları hüquqi problemlərlə üzləşir. Yeni yaranan Assosiasiya bu problemlərin aradan qaldırılması üçün faydalı ola bilər. İnanıram ki, qurum fəaliyyətini effektiv qura bilsə, hökumətlər onunla əməkdaşlıqda maraqlı olacaq”.

**Türkiyə prezidentinin siyasi məsələlər üzrə müşaviri Özləm Zəngin çıxışında diqqəti bəzi beynəlxalq qurumların ədalət prinsipindən uzaqlaşmasına çəkib:** “Bu gün dünya hüquq sisteminin ən böyük problemlərindən biri hüququn aliliyi prinsipindən uzaqlaşaraq güc mərkəzlərinin himayəçisi rolunda çıxış etmələridir. Ümid edirəm ki, yaradılan Assosiasiya bu sistemdə yaradılan boşluğu doldurmaq üçün ciddi işlər görə biləcək. Türkiyə hər zaman beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq yerli problemlərin həlli üçün çözüm bulunmasına yardımçı olub və biz bundan sonra da bu yöndə bütün təşəbbüsləri dəstəkləyəcəyik. Hesab edirəm ki, Qara və Xəzər dənizi ölkələrinin problemlərinin çözümü üzrə yaradılacaq hüquqi praktika digər ölkələrdə də uğurla tətbiq ediləcək”.

**Avrasiya Təşəbbüsləri və Əməkdaşlıq Assosiasiyasının prezidenti Toğrul Vəli** Türkiyə nümayəndə heyətinin Nizamnamə və Əsasnamə üzrə hazırladığı təkliflər paketini qurumun İdarə Heyətinə təqdim edib. T.Vəli təkliflər paketi haqqında açıqlamasında bildirib ki, təkliflər əsasən son bir neçə ildə bölgədə ciddi problem halına gələn miqrasiya, qaçqınlar, dənizçiklik fəaliyyəti ilə bağlı məsələlərin çözümü haqqındadır.

Sonda növbəti toplantının 6 ay sonra Moskvada keçirilməsi qərarlaşdırılıb. Assosiasiyanın prezidenti İlham Rəhimov yekun nitqində bildirib ki, qurumun həm Avropa strukturları, həm də Avrasiya İttifaqı ilə sıx işbirliyinin tərəfdarıdır: “Biz regionda çox ciddi bir təşəbbüsün əsasını qoyuruq. Ümid edirəm ki, qurum praktik məsələlərin operativ həllində böyük işlər görə biləcək və beynəlxalq hüququn təkmilləşdirilməsinə böyük töhfə verəcək”.

❑ **Aygün MURADXANLI**

Yeni MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016



# Akif Çovdarov güclü mühafizə altında məhkəməyə gətirildi

## Məhkəməyə arxa qapıdan gətirilən generalı zirzəmidən liftlə zala aparırlar...

**Oktyabrın 4-də Sabunçu Rayon Məhkəməsində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**




**Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən hazırlıq iclası jurnalistlərin iştirakı olmadan keçirilib. Vəkil Cavid Rzazadə jurnalistlərə bildirib ki, prosesdə vəkillər bir sıra vəsatətlər veriblər. Akif Çovdarovun vəkili Kamandar Nəsibov cinayət işi ilə tanış olmaq üçün vaxt istəyib. Onun vəsatəti qismən təmin olunub. Akif Çovdarov da xəstə olduğunu, işlə tanış ola bilmədiyini deyib.**

Prosesdə vəkillər vəsatətlə çıxış edərək bildiriblər ki, cinayət işinə Bakı Hərbi Məhkəməsində baxıldığı üçün onların barəsində həbs qətimkan tədbiri də Bakı Hərbi Məhkəməsində seçilməli idi. Lakin həbs qərarı Səbayel rayon Məhkəməsi tərəfindən verilib. Vəkillər buna aydınlıq gətirilməsini, həbs qərarının qanunsuz olduğu üçün ləğv edilmələrini istəyiblər. Məhkəmə vəsatətə münasibət bildirməyib.

Musavat.com-un verdiyi məlumata görə, təqsirləndirilənlərdən **Səlim Məmmədovun vəkili Cavid Rzazadə** bildirib ki, o, vəsatətlə çıxış edib: "Təqsirləndirilən şəxslər hərbi qulluqçulardır. Onların barəsində Səbail Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Lakin onlar barəsində işə yalnız Bakı Hərbi Məhkəməsində baxılmalı idi. Biz düşünürük ki, bu, qanunsuzdur. Əgər həbs-qətimkan tədbiri Səbayel Rayon Məhkəməsinin qərarı ilə seçilibsə, işə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılmalı idi. İndi bu şəxslər Səbayel Rayon Məhkəməsinin qərarı ilə həbs edilibsə, bu, qanunsuzdur. Bununla bağlı vəsatət vermişik. Vəsatət baxılmamış saxlanılıb".

Vəkil onu da qeyd edib ki, məhkəməyə mülki iddia ilə müraciət olunub. C.Rzazadə həmin iddianın Dövlət Təhlükəsizlik Xidməti tərəfindən edildiyini açıqlayıb.

A.Çovdarovun vəkili Kamandar Nəsibov məhkəmədən cinayət işi ilə tanış olmaq üçün vaxt istəyib.

Vəkil C.Rzazadə qeyd edib ki, A.Çovdarov səhhəti ilə bağlı çıxış edərək, cinayət işinin materialları ilə tanış ola bilmədiyini deyib.

Məhkəmə prosesi oktyabrın 19-na təxirə salınıb. Sabunçu Rayon Məhkəməsində olan nəzarətçilərin verdiyi məlumata görə, A.Çovdarov məhkəmə zalına gətirilərkən onu heç kim görmür. Xüsusi girişdən zala gətirilən A.Çovdarov zalda şüşə qəfəs arxasında oturanadək heç kimlə təmasda olmur.

**"Məhkəməyə arxa qapıdan gətirilir. Maşın birbaşa zirzəmiyə daxil olur. Akif Çovdarov liftlə zala qaldırılır. Onu kiminsə görməsi mümkün deyil" - deyə verilən məlumatda bildirilir.**

❑ **İLKİN**

# Fərəc Kərimli azadlığa buraxıldı

## Müsavat başqanının müavini: "Xeyli istirahət etmişəm..."



**Müsavat Partiyası başqanının müavini Fərəc Kərimli oktyabrın 4-də amnistiya ilə vaxtından əvvəl azadlığa çıxıb. Bu barədə "Turan"a Müsavat başqanın müavini Elman Fəttah bildirib.**

Onun sözlərinə görə, F.Kərimlinin azadlığa buraxılması üçün əsas hələ iyunun 15-dən amnistiya aktı qüvvəyə mindiyi vaxtdan olub. Lakin Fərəci daha 4 ay həbsdə saxlayaraq amnistiya müddətinin başa çatmasına 10 gün qalmış buraxıblar.

"Həbsxana da bir məktəb idi. Orda keçirdiyim iki ilə təəssüflənmirəm. Azadlıqda olmaq gözəldir, amma...Tam rahat ola bilmirsən. Həbsdə dostlarımız qaldı. İlkin Rüstəmzadə, Əli İnsanov, Əbdül Əbilov, Elvin Abdullayev, İlqar Məmmədov... Adını çəkmədiyim başqa siyasi məhbusları görəndə tam rahatlana, azadlığı tam hiss edə bilmirsən". F. Kərimli AzadlıqRadiosuna müsahibəsində belə deyib. O, amnistiya düşsə də, azadlığa bir neçə ay sonra buraxılmasını referendumla bağlayıb:

- Ali Məhkəmənin qərarı ilə cəzam yüngülləşəndən sonra məni 14 saylı cəzaçəkmə müəssisəsinə apardılar. Orda dedilər ki, 5-10 günə buraxılacaqsan. Sonra da məsələ uzandı, araya referendum düşdü. Çəkdi, çox çəkdi... Yəqin belə məsləhət bildilər ki, referendumdan sonra çıxım azadlığa...

***- Bu gün azadlığa çıxmağınız. Sizin üçün gözlənilməz idi, ya əvvəldən nəsə deyilmişdi?***

- Belə şübhəli idi... Yox, bu gün gözləmirdim, açığı. Amma oktyabrın 15-dək azadlığa buraxılacağımı ehtimal edirdim.

***- Artıq azadlıqdasız. İki il əvvələ qayıdaq. Həbsinizi necə dəyərləndirirsiz?***

- Hakimiyyətin sifarişi ilə həbs edilmişdim. Şər, böhtan idi, qondarma ittihamlar idi.

***- O ərəfədə həbsinizi gözləyirdizmi?***

- Həbsimdən ayyarım, iki ay əvvəl tutulmağımı gözləyirdim. Haqqımda bəzi məlumatlar verilmişdi, yoxlanırdım, izlənirdim. İş yerimdə də izlənirdim. Həbsimi gözləsəm də, qardaşımın mənimlə eyni vaxtda tutulacağını gözləmirdim.

***- Qardaşınızın həbsi təsadüf idi, ya o da, dediyiniz kimi siyasi sifarişlə tutulmuşdu?***

- Dedilər ki, qardaşımı səhvən həbs ediblər. Amma Natiq Ədilovun *(hazırda Fransada yaşayan jurnalist- red.)* qardaşı Murad Ədilovu həbsdə görəndə, Emin Millinin *(hakimiyyəti tənqid edən «Meydan TV»nin direktoru - red.)* qohumlarının həbsini görəndə düşünürəm ki, bu, təsadüf deyildi, yəni, deyildiyi kimi, səhv deyildi. Elə düşünülmüş şəkildə olub.

***- Siz 2014-cü ildə həbs edilmişdiniz, ölkədə bir çox hüquq müdafiəçilərinin, fəalların saxlanıldığı bir vaxtda. Sizcə, çoxsaylı həbslərdə məqsəd nə idi?***

- Məqsəd müxalif düşərgənin, ictimai sektorun gözünü qorxutmaq idi. Şəxsən mənim Müsavat Partiyasındakı fəaliyyətimə əngəl olmaq idi. Həm də öz aləmlərində gəncləri qorxutmaq istəyirdilər. Şəxsən məni həbs etməklə nəyəsə nail olmadılar (gülür). Əksinə, bundan sonra daha artıq, daha əzmlə mübarizə aparacağam.

***- Yeni qaldığınız yerdən davam edəcəksiz?***

- Bəli. Xeyli də istirahət etmişəm. İndi fəaliyyətimizə başlayacağıq.

***- İdeyalarınız varmı?***

- Həbsxanadan çıxandan sonra görəcəyim işlər haqda, əlbəttə, düşünmüşəm. Yaxın vaxtlarda yəqin bu hiss olunacaq (gülür).

Xatırladaq ki, Müsavat Partiyası sədrinin müavini Fərəc Kərimli və onun bitərəf qardaşı Sirac Kərimli 2014-cü ilin iyulunda qanunsuz narkotik maddə dövriyyəsində ittiham olunaraq həbs ediliblər.

F.Kərimli 6,5 il, S.Kərimli isə 6 il azadlıqdan məhrum edilib. Sonuncu əfv 2016-cı il martın 17-də olub. Bununla belə, o, bəraət almağa çalışır. Hər iki qardaş Amnesty International tərəfindən "vicdan məhbusu" kimi tanınıb.

**Mayın 24-də Ali Məhkəmə F.Kərimlinin şikayətini qismən təmin edərək 234.4.3-cü maddə (narkotik maddənin qanunsuz hazırlanması, istehsalı, əldə edilməsi, saxlanması) üzrə ittihamı daha yumşaq maddəyə 234.1-ci maddəyə (narkotik maddənin şəxsi istifadə üçün qanunsuz əldə edilməsi və saxlanması) tövsif edib və onun cəza müddətini 3 ilədək azaldıb.**

# Referenduma beynəlxalq reaksiyalar müxalifəti qane edib?

## Elman Fəttah: "Bizim üçün ən mötəbər mənbə və rəy Avropa Şurasının Venesiya Komissiyası və onun rəyidir"

**Referendumdan 10 gün keçir. Bu müddətdə beynəlxalq qurumların referendumla bağlı mövqeləri bəlli oldu.**

ABŞ Konqresinin Helsinki Komissiyasının ermənipərəst kimi tanınan həmsədri Kris Smitin açıqlamalarına söykənib "Referendumun nəticələri beynəlxalq aləm tərəfindən tanınmayacaq" deyənlər əks mənzərə ilə üzləşdilər. Beynəlxalq müşahidəçilər və qurumlar seçki günü və keçən 10 gün ərzində daha çox hakimiyyəti qane edən mövqe və rəylər verdilər.




Bəs, beynəlxalq təşkilatların son 10 gündə referendumla bağlı rəyləri müxalifəti qane etdimi?

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah** bildirdi ki, onlar üçün ən mötəbər mənbə və rəy Avropa Şurasının Venesiya Komissiyası və onun rəyidir. Venesiya Komissiyasının Konstitusiya dəyişikliyi ilə bağlı rəyi isə obyektiv yanaşma sayıla bilər: "Azərbaycan Avropa Şurasının üzvüdür. Üzvlüklə bağlı əsas öhdəliklərdən biri də qanunvericiliyin Avropa konvensiyasına uyğunlaşdırılması, həmçinin mühüm qanun layihələrinin, o cümlədən konstitusiyaya dəyişiklik və əlavə layihələrinə Avropa Şurası Venesiya Komissiyasından rəy alınması öhdəliyidir. Bu baxımdan son Referenduma çıxarılan məsələlər ilə bağlı da münasibət bildirmək üzrə rəsmi mandat Avropa Şurası Venesiya Komissiyasındadır. Bu Komissiya məlum referendum layihəsi ilə bağlı kifayət qədər obyektiv rəy bildirib və təklif olunan dəyişikliklərin demokratik prinsiplərə zidd olduğunu bildirib. Venesiya Komissiyasının rəyi bu məsələdə ən mötəbər mənbədir və bütövlükdə beynəlxalq ictimaiyyətin ümumi yanaşmasını ehtiva edir.

Müsavat Partiyası da Venesiya Komissiyasının rəyini obyektiv yanaşma hesab edir".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016

# Amerika ilə iqtidarın ortaq komissiyası alınmadı - səfir açıqladı

## Lakin problemlərə baxmayaraq, ABŞ və ATƏT hakimiyyətlə anlaşmaq istəyir; **Sülhəddin Əkbər:** "Azərbaycanla ona görə anlaşmaq istəyirlər ki..."

**ABŞ-ın ATƏT-dəki daimi nümayəndəsi, səfir Daniel Bayer "Amerikanın səsi" radiosuna və "Turan" İnformasiya Agentliyinə müsahibəsində Azərbaycanda insan hüquqları və Qərbin demokratik institutları ilə münasibətlərdən danışıb. O deyib ki, ATƏT-in Bakı ofisinin fəaliyyətinin dayandırılması Azərbaycan hökumətinin tələbi idi. Bu isə həm hökumət, həm də Azərbaycan xalqı üçün bir itkidir.**

"Bildiyiniz kimi, ATƏT-in Azərbaycanla konstruktiv işini ATƏT-in tərkibindəki qurumların və onun Vyanadakı Daimi Şurasında iştirakı formasında davam etdiririk. Bununla yanaşı inanırıq ki, ATƏT-in Azərbaycandakı missiyası Azərbaycan hökuməti və xalqına, həmçinin regionun təhlükəsizliyinə müsbət töhfə verəcək. ATƏT-in Bakıdakı fəaliyyətinin bərpası üçün Azərbaycanın atacağı addım onun ATƏT ilə əməkdaşlığa hazır olmasını göstərməsi olardı. Əgər Azərbaycan tərəfi Vyanaya gəlsə və ATƏT-in Bakıda fəaliyyətinin bərpasına hazır olduğunu söyləsəydi, Amerika Birləşmiş Ştatları bunu güclü bir şəkildə müdafiə edərdi. Daimi Şuranın Azərbaycanın xahişi ilə bağlı böyük dəstəyi olardı", - Bayer deyib.

**Səfir qeyd edib ki, Azərbaycan ABŞ da daxil olmaqla, digər ölkələr kimi ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunu (DTİHB) seçkiləri müşahidə etməyə dəvət etmək öhdəliyini götürüb. Gələcəkdə Azərbaycan hökuməti DTİHB-nin metodologiyasına və müşahidəçilərinə uyğun olduğuna əmin olmaq üçün öncədən DTİHB ilə işləsə çox yaxşı olardı:** "Azərbaycan hökumətinin atacağı ən əhəmiyyətli addım gələcəkdə ATƏT-in seçki müşahidəçilərini qəbul etməkdir. Fikrimcə, həmin müşahidəçilərin ötən il seçkilərdə iştirak etməməsi təəssüfə layiqdir, çünki bu, Azərbaycan hökuməti və xalqını gedişatın necə olması və gələcəkdə nələr etməli olduqlarını bilməkdən məhrum etdi".

**Bayerin sözlərinə görə, əsas məsələ odur ki, Azərbaycan hökuməti insan hüquqlarına və Azərbaycan vətəndaşlarının əsas azadlıqlarına hörmət etməli və siyasi məhbusları azadlığa buraxmalıdır:** "Ona görə yox ki, bunu Dan Bayer söyləyir, ona görə ki, bununla daha güclü, daha firavan Azərbaycan yaratmış olacaq. Amerika Birləşmiş Ştatlarının isə güclü və firavan Azərbaycanla əməkdaşlıqda uzunmüddətli marağı var".

**"Bir neçə konqresmen Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsi ilə çıxış edib. Bu layihənin Konqresin gündəliyinə çıxarılması nə qədər realdır? Yaxud "Qlobal Maqnitski Aktı" Azərbaycana da tətbiq edilə bilərmi" sualına səfir belə cavab verib:** "Ümid edirəm buna ehtiyac olmayacaq. Biz insan hüquqları və əsas azadlıqları, ATƏT-in prinsip və öhdəliklərinə hörmət edilməsinə dair davamlı tərəqqi naminə dəstəyimizi göstərmək üçün Azərbaycan hökumətindəki həmkarlarımız və vətəndaş cəmiyyəti ilə diplomatik əlaqələrimizi davam etdirəcəyik".

**Səfir bir il yarım öncə xanım ABŞ dövlət katibinin müavini Viktoriya Nulandın ABŞ ilə Azərbaycanın demokratiya və insan hüquqlarının genişləndirilməsi məqsədilə hökumətlərarası birgə komissiyanın**



Daniel Bayer

**yaradılması barədə razılığa gəlindiyini, lakin həmin ikitərəfli komissiyanın planlaşdırılmasının alınmadığını deyib:** "Ancaq bunun üçün əsl motivasiya hələ də qalmaqdadır. Həmin motivasiyanın məğzi isə Azərbaycanın dostu və müttəfiqi kimi bizim Azərbaycan, ABŞ və ATƏT-in digər üzv dövlətlərinin birlikdə hazırlamış olduğu öhdəlikləri yerinə yetirməyə, insan hüquqları və əsas azadlıqlarına dair irəliləyiş əldə etmək üçün konstruktiv və effektiv dialoqlar vasitəsilə Azərbaycan hökuməti ilə fəaliyyət göstərməyə davam etməyimizdir".

**ABŞ-ın ATƏT-dəki səfirinin müsahibəsindən belə nəticəyə gəlinir ki, ATƏT və ABŞ Azərbaycan hakimiyyəti ilə demokratiya məsələsində anlaşmaq, əməkdaşlığı bərpa etmək istəyindədir. Bu barədə danışan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, bu istəyin reallaşmamasını istəyən, eyni zamanda Nulandın Bakıda razılaşdırdığı ikitərəfli komissiyanın baş tutmasın mane olan qüvvələr və səbəblər var:** "Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul ediləndə xüsusi qeyd edilib ki, Azərbaycan Respublikası 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Azərbaycan milli azadlıq hərəkatı başlayan dövrdən Azərbaycanda demokratik hərəkat başladı. Azərbaycanın demokratik inkişafı 1990-cı ildə öz pik həddinə çatdı və nəticədə Azərbaycanın demokratik qüvvələri Azərbaycanda hakimiyyətə gəldilər və bir il ərzində ölkədə geniş demokratik islahatlara başladılar. Təəssüf ki, xarici dəstəkli 4 iyun hərbi qiyamı dövlət çevrilişi ilə başa çatdı və demokratik inkişaf qırıldı. Azərbaycanda demokratiya sahəsində geriyə getmə başladı. 1993-2003-cü illər arasında Azərbaycanda Heydər Əliyev dönəmində idarəolunan demokratiya siyasəti aparıldı. Həmin dövrdə həm ATƏT-lə, həm ABŞ-la Heydər Əliyev hakimiyyəti yaxınlaşmaq siyasəti yürüdürdü. Heydər Əliyev hətta Azərbaycanın NATO-ya üzvlüyü ilə bağlı ABŞ-la, NATO ilə danışıqlar da aparırdı. Proseslər bu dərəcədə dərinləşmişdi. Çox təəssüf ki, 2003-cü ildə - Heydər Əliyevdən sonrakı dönəm start götürəndən Azərbaycanda demokratiya sahəsində reqress - geriyə getmə başladı. Azərbaycan tədricən idarə olunan demokratiya siyasətindən imtina elədi. 2010-cu ildə parlament seçkilərində isə hətta demokratiya imitasiyasından da imtina edildi və reqres prosesi də başa çatdı. Son olaraq 26 sentyabrda referendum keçirərək Konstitusiyada məlum dəyişiklikləri etdilər. Bunları sadalamaqda məqsədim ondan ibarətdir ki, Azərbaycanda 1993-cü ildəki hərbi qiyamdan sonra reqres prosesi artıq öz məntiqi sonluğuna çatıb və avtoritar hakimiyyət formalaşıb. Bu cür hakimiyyətlərin də təbii ki, ATƏT-lə, Avroatlantik məkanla əməkdaşlıq potensialı məhduddur. Məhdud olan potensial da artıq tükənib. Buna görə ATƏT-lə, Avropa Birliyi ilə, NATO ilə, ABŞ-la münasibətlərdə Azərbaycan problem yaşamağa başlayıb. Başlıca ABŞ-la ortaq komissiyasının baş tutmamasının səbəblərindən biri budur. Digər səbəb odur ki, Azərbaycanın yerləşdiyi geopolitik məkanda hakim olan Rusiya bu məkanda heç bir keçmiş postsovet respublikasının, o cümlədən Azərbaycanın demokratikləşməsini istəmir. Çünki demokratikləşən respublika demokratik dünya ilə inteqrasiya edəcək. Rusiya və İran Azərbaycanda sahib olduqları "beşinci kolon" vasitəsilə mümkün qədər demokratik inkişafın qarşısını alırlar, demokratik dünya ilə əməkdaşlığın olmaması üçün əllərindən gələni edirlər. Nulandla razılaşdırılmış ortaq komissiyanın da işə başlamasının mümkün olmaması bunlarla bağlıdır".

**S.Əkbər vurğuladı ki, bununla belə, ABŞ postsovet məkanının demokratikləşməsini istəyir:** "ABŞ-ın, ATƏT-in əməkdaşlıqda davam etmək istəklərini ortaya qoyması bununla bağlıdır. Ona görə istəyirlər ki, birinci öz maraqları var. Bilirlər ki, demokratikləşən Azərbaycan ABŞ-ın NATO-nun təbii müttəfiqi olacaq. Təbii ki, burada başqa maraqları da mövcuddur. Ona görə də Azərbaycanla anlaşmaq istəyirlər. Demokratik proseslərin tədrici, danışıqlar yolu ilə, mərhələli, iadrə olunan şəkildə getməsini istəyirlər. Həmçinin də tələb edirlər".

❑ **Etibar SEYİDAĞA**



# İlham Əliyev və xanımı Rəşid Behbudovun heykəlinin açılışında

**Oktyabrın 4-də dünya şöhrətli müğənni, xalq artisti Rəşid Behbudovun Bakıda heykəlinin açılış mərasimi olub. AzərTAc xəbər verir ki, tədbirdə prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.**




Dövlətimizin başçısı İlham Əliyevə məlumat verilib ki, dünya şöhrətli müğənninin adını daşıyan Dövlət Mahnı Teatrının qarşısında ucaldılan heykəlin müəllifi xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, professor Fuad Salayevdir. Heykəlin hündürlüyü 3, pyedestalla birlikdə isə 4,5 metrdir. Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva və məşhur müğənninin ailə üzvləri ilə birlikdə heykəlin üzərindəki örtüyü götürülüb.

Prezident İlham Əliyev mərasimdə çıxış edib.

Tədbirdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor Firəngiz Əlizadə, xalq artistləri Mübariz Tağıyev, Xuraman və Fidan Qasımova bacıları, müğənninin ailə üzvü Kamil Şahverdiyev çıxış ediblər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və tədbirin iştirakçıları abidənin önünə gül dəstələri qoyublar.

Dövlətimizin başçısı Rəşid Behbudovun ailə üzvləri, mərasimdə iştirak edən mədəniyyət və incəsənət xadimləri ilə görüşüb.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva və dünya şöhrətli müğənninin ailə üzvləri və mərasimə gələn qonaqlarla xatirə şəkli çəkdiriblər.

Daha sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və mərasim iştirakçıları Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının estrada-simfonik orkestrinin müşayiəti ilə əməkdar artist Xəyyam Mustafazadə və müğənni Fəxri Kazım Nicatın ifasında dünya şöhrətli müğənnilər Rəşid Behbudovun və Müslüm Maqomayevin repertuarlarından mahnılar dinləyiblər.

# Azərbaycanın Avropa Məhkəməsinin hakimliyinə namizədlərin AŞ PA-nın komitəsindən keçib

**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Avropa İnsan Haqları Məhkəməsinə (AİHM) Hakimlərin Seçilməsi Komitəsində AİHM-ə seçilmək üçün namizədliyi irəli sürülmüş 3 azərbaycanlı hakimin məsələsinə baxılıb.**

APA-nın AŞ PA-ya istinadən verdiyi məlumata görə, sentyabrın 29-da komitə iclası zamanı azərbaycanlı namizədlərin siyahısı komitənin tövsiyələri ilə birlikdə AŞ PA-ya göndərilib.

AŞ PA-nın oktyabrın 10-14-də keçiriləcək payız sessiyası zamanı oktyabrın 11-12-də hakimin seçilməsi ilə bağlı səsvermənin keçirilməsi gözlənilir.

Azərbaycanın Avropa Şurasındakı səfiri Emin Eyyubov AŞ PA-nın baş katibi Voytsex Savitskiyə hakimlər Kəmalə Abıyeva, Lətif Hüseynov və Rövşən İsmayılovun namizədliyinin Azərbaycan hökuməti tərəfindən təsdiqlənməsi barədə məktub göndərib.

Qeyd edək ki, bundan əvvəl 2 dəfə - ötən il iyunun 15-də və bu il yanvarın 24-də AŞ PA Azərbaycandan göndərilən namizədlərin siyahısını geri qaytarmışdı.

# Marketlərdə süni bahalığı kimlər yaradır?

**Hökumətin bəzi məhsulların gömrük rüsumlarının artırılması ilə bağlı qərarı hələ qüvvəyə minməsə də, marketlərdə artıq bahalaşma başlayıb. Bu səbəbdən oktyabrın 3-dən əhali marketlərə axın edərək, ərzaq tədarükü görüb.**




# Hökumət "qiymət qiyamçıları"nı cəzalandıra bilər

## Bəzi işbazlar və şirkətlər Nazirlər Kabinetinin qərarını sabotaj edərək ərzaq məhsullarının qiymətini bahalaşdırıb, deputat müvafiq qurumları ölçü götürməyə çağırdı

"Yeni Müsavat"ın müxbiri marketlərə baş çəkərək qiymətlərlə bağlı son durumu öyrənib. Qeyd edək ki, iki gün öncə ilə müqayisədə həqiqət də qiymət artımı var. 48 qəpiyə satına unun bir kiloqramı 55 qəpiyə, 1.25 manata satılan şəkər tozu 1.30 manata, 1.68-ə satılan qədin kiloqramı 1.80 manata qalxıb. Həmçinin çayların və makaron məhsullarının qiymətində 10 qəpik civarında bahalaşma var. Qəradək 16 qəpiyə satılan yumurta indi 18 qəpiyə satılır. Müxtəlif şirkətlərə məxsus toyuq ətinin kiloqramı isə 3.70-4 manat arasında dəyişir. Kərə yağlarının qiymətində isə 60-70 qəpik bahalaşma müşahidə olunur. 9.80 manata satılan "Vest gold" və "Ancor" yağları indi kiloqramı 10.50 manatdan təklif olunur. Duru yağlar da 20-30 qəpik bahalaşıb. 1 litr "Final" qarğıdalı yağı 3.95 manat olub. Meyvə şirələrinin, qazlı və spirtli içkilərin də qiyməti bahalaşıb. Çörəyin qiymətində hər hansı bahalaşma yoxdur.

Məlum olduğu kimi, hökumət bu qərarı yaxşı niyyətlə, yerli istehsalın stimullaşdırılması məqsədi ilə qəbul etsə də, bazarda əks nəticə qeydə alındı. Bəzi işbazlar, yerli istehsalçı iri şirkətlər sanki hökumətin qərarını sabotaj etdi, əhali arasında ajiotaj yarandı. Bəs, görəsən bu dəfə də bazarlara inzibati nəzarət mexanizmi tətbiq olunacaqmı? Müvafiq qurumlar süni bahalaşma yaradanları cəzalandıracaqmı?

"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən **İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev** qeyd etdi ki, hökumətin gömrük rüsumunun artırılması ilə bağlı son qərarı yerli istehsalın gücləndirilməsinə, sahibkarlığın inkişafına, rəqabət qabiliyyətli ixrac yönlü məhsul istehsalının gücləndirilməsinə, xüsusilə də yerli istehsalın dəstəklənməsinə yönəlik bir addımdır: "Gömrük rüsumunun dəyişdirilməsi ilə bağlı qərar o mallara aid edilib ki, onların Azərbaycanda istehsalı genişdir və özünü təminat səviyyəsi yüksəkdir. Gömrük rüsumları dəyişdirilən idxal məhsullarında qiymət dəyişikliyi ola bilər. Yerli məhsullarda isə qiymət dəyişikliyi olmamalıdır. Əhali yerli məhsullardan istifadə etməklə öz tələbatlarını ödəyə bilərlər.

Hazırda bəzi KİV-lərdə qiymət dəyişikliyi ilə bağlı gedən məlumatlara gəlincə, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti mütəmadi olaraq monitorinqlər keçirir və istehlak bazarında tədbirlərini davam etdirir. Son günlərdə bu dövlət xidmətinin apardığı monitorinqlərdə qiymət dəyişikliyi qeydə alınmayıb. Bundan sonra bu tədbirlərimiz davam edəcək ki, süni qiymət artımı hallarına yol verilməsin".

Cəmiyyətdə yaranan ajiotaja münasibət bildirən **Milli Məclisin Sosial Siyasət Komitəsinin üzvü Musa Quliyev** də qərarı müsbət dəyərləndirdi və ilkin mərhələdə bu ajiotajın gözlənilən olduğunu vurğuladı: "Bu çox müsbət bir qərardır və biz yaxın vaxtlarda onun müsbət nəticələrini də görəcəyik. Yerli istehsal artacaq, məşğulluq yaxşılaşacaq, ölkədən valyuta çıxması azalacaq. Bu qərarın müsbət tərəfləri çoxdur. Ancaq ilk mərhələdə müəyyən ajiotajın olması da mümkündür. İnsanlar eşidib ki, xaricdən gətirilən ərzaq məhsulları bahalaşacaq, çalışırlar ki, bir aylıq ehtiyatlarını yığsınlar. Bu mənada ajiotaj yaranır. Bu təbii hadisədir və dövlətin, cəmiyyətin həyatına ciddi təsir edəcək bir məsələ deyil. Mən hələ ki, bir sosial gərginlik hiss etməmişəm. Yerli sahibkarların qiymətləri qaldırmasını da doğru hesab etmirəm. Yalnız böyük şirkətlər bu addımı ata bilər. O da vicdan məsələsidir. Dövlət qarşısında onların müəyyən öhdəliyi var. Yaxşı olar ki, dövlətin müvafiq qurumu belə hallarda tədbirlərini gücləndirsin, reydlər keçirsin, bahalaşmanın səbəblərini soruşsun və bu hallar haqqında müəyyən ölçü götürülsün.

Xatırlayırsınızsa, ötən ilin sonunda manatın ucuzlaşması ilə əlaqədar belə sabotaj hallarının aradan qaldırılması ilə əlaqədar tədbirlər gücləndirildi, ölkə başçısı qəti şəkildə tapşırıq verdi. Burada ölkə başçısı da işə qoşuldu, müvafiq qurumlar da fəaliyyətlərini gücləndirdilər, ictimaiyyət də fəal oldu. İndi də belə şəraiti fürsət bilən, varlanmaq fikrinə düşən insanlar öncə öz vicdanı qarşısında cavab verməlidir, cəmiyyətin və hökumətin qarşısında məsuliyyətinin hiss etməlidir".

**İqtisadçı-ekspert Vüqar Bayramov** isə "Yeni Müsavat"a açıqlamasında yerli məhsulların bahalaşmasını əsassız addım kimi qiymətləndirdi: "Bu qərarın qəbul edilməsi gözlənilən idi. Biz öncədən də demişdik ki, ölkə daxilində istehsal olunan məhsullara yüksək səviyyədə antidenpiq tətbiq olunmalıdır. Digər məhsullara isə antidenpiqin tətbiq edilməsi heç bir halda qəbul edilən deyil. Gömrük rüsumu artırılan məhsullara diqqət yetirsək, onlar əsasən Azərbaycanda kifayət qədər yüksək həcmdə istehsal olunan məhsullardır. Təbii ki, qərar idxal olunan müvafiq məhsulların qiymətini artıra bilər. Çünki idxal olunan məhsulların xərcində də artım olacaq. Hökumətin son qərarı bazarda yerli məhsulların qiymətini artırmamalıdır, çünki yerli məhsulların xərcində dəyişiklik yoxdur. Ancaq təəssüf ki, marketlərdə əksinə proses baş verir. İdxal olunan məhsulların qiymətində elə də ciddi dəyişiklik olmasa da, yerli istehsal olan ərzaq məhsullarının qiymətində dəyişiklik var. Sahibkarlar çalışırlar ki, yerli istehsal olan məhsulların qiymətini artırsınlar. Bu qiymət artımlarının iqtisadi əsası yoxdur".



**Ekspert qeyd etdi ki, onun əsas təkliflərdən biri bu durumda dövlətin bazara nəzarət etməsidir:** "Bu zaman sual yaranır ki, dövlət bazara müdaxilə edə bilərmi? Əslində doğru olan qiymətin bazar tərəfindən tənzimlənməsidir. Biz də bunun tərəfdarıyıq. Azərbaycan qanunvericiliyində isə "süni qiymət artımı" anlayışı var. Süni qiymət artımı anlayışı imkan verir ki, İqtisadiyyat Nazirliyi yanındakı müvafiq xidmət bazarda monitorinq aparmaqla qiymətlərlə məhsulun xərci arasındakı dəyişikliyi yoxlaya bilsin. Bu fundamental bazar qanunlarına ziddir. Bu qanunlara əsasən qiymət bazarda müəyyənləşməlidir. Amma təəssüf ki, Azərbaycan biznesi birbaşa fundamental qaydalarla qiyməti müəyyənləşdirməkdə maraqlı görünmür. Əksər hallarda biznesmenlər daha çox gəlir əldə etməyə çalışırlar, hətta xərcləri artmadığı halda qiymət artımına gedirlər.

Bu kimi halların qarşısını almaq üçün inzibati qaydada monitorinqlərin aparılmasına ehtiyac var. Müvafiq qurumlar qiymətlərə nəzarət etməlidir. Əgər bazarda idxal olunan məhsulların xərci artırsa, bu normaldır. Ancaq yerli məhsulların qiyməti artırsa, inzibatı rıçaqlarla tənzimlənməlidir. Bu qısamüddətli dövr üçün keçərlidir. Daha uzunmüddətli dövr üçün yaxşı olar ki, yerli şirkətlərdə korporativ sosial məsuliyyət inkişaf etdirilsin".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**








YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016

**Beynəlxalq Bankın həbsdə olan keçmiş sədri Cahangir Hacıyevin oktyabrın 3-də keçirilən növbəti məhkəmə prosesində onun vəkili Aqil Layıcov sensasion açıqlama verib. Vəkil bildirib ki, C.Hacıyevin Böyük Britaniyada yaşayan həyat yoldaşı Zamirə Hacıyevanın ölkəyə gətirilməsi üçün xüsusi əməliyyat qrupu Londona göndərilib.**



# Cahangir Hacıyevin xanımı Azərbaycana təhvil verilməyəcək - səbəblər

## **İlham İsmayıl:** "Pulları verən bank ittiham olunmalıdır, Zamirə Hacıyeva yox"

**A.Layıcovun sözlərindən aydın olub ki, əməliyyat qrupu Zamirə Hacıyevanı Londondan alıb gətirə bilməyib.**

Qeyd edək ki, C.Hacıyevin arvadı Beynəlxalq Bankdan 18 milyon manat vəsaitin mənimsənilməsində ittiham olunur. Onun barəsində həbs qətimkan tədbirinin seçilməsi və onun beynəlxalq axtarışa verilməsinə dair qərarı bu il iyunun 1-də Nərimanov Rayon Məhkəməsi çıxarıb. Qərara əsasən Z.Hacıyeva Beynəlxalq Bankdan 2009-2015-ci illər ərzində bir neçə kredit kartı ilə üst-üstə 18 milyon manat çıxararaq şəxsi ehtiyacları üçün xərcləyib. Bura xanım Hacıyevanın Avropa ölkələrində lüks istirahət xərcləri, gözəllik salonlarının xidmətlərindən istifadə etməsi, təyyarə biletləri və s. daxildir. Qərarda deyilirdi ki, Z.Hacıyeva 2014-cü il noyabrın 15-də Bakı aeroportundan "London istiqamətində" ölkəni tərk edib və həmin vaxtdan Azərbaycana qayıtmayıb.

Lakin məhkəmənin qərarında şübhəlinin barəsində beynəlxalq axtarış elan olunduğu bildirilsə də, Z.Hacıyevanın adı indiyədək İnterpolun axtarış sisteminə daxil edilməyib.

Z.Hacıyeva barədə bu xəbər meydana çıxandan sonra onun ölkəyə gətirilməsinin mümkün olub-olmayacağı maraq doğurur. İddialar var ki, bankirin həyat yoldaşı Azərbaycanda mənimsədiyi külli-miqdarda pulları çirkli London banklarına yerləşdirib. O, Azərbaycana gətiriləcəyi təqdirdə, həmin pulların taleyinin necə olacağı da müəmmalıdır.

**Sabiq MTN polkovniki, politoloq İlham İsmayıl** bildirdi ki, Z.Hacıyevanın Azərbaycana gətirilməsi üçün əməliyyat qrupu çoxdan göndərilib: "Azərbaycanla Birləşmiş Krallıq arasında hüquqi yardımlaşma barədə rəsmi əməkdaşlıq müqaviləsi yoxdur. Eyni zamanda, Zamirə Hacıyevaya qarşı irəli sürülmüş ittiham Avropada birmənalı qarşılanmır. Bank bu şəxsə vəsait verib və o da onun əsasında Londondadır. Bankdan pulları necə götürüb, bu, Londonu maraqlandırmır. Böyük Britaniya o şəxsi Azərbaycana verəsi deyil. Londonun Cinayət Məcəlləsində iki şəxs arasında hətta milyonluq, milyardlıq məsələlər cinayət sayılmır. Bir şəxsin aldadılması, dələduzluq etməsi onlar üçün cinayət deyil. Çox güman ki, əməliyyat qrupu deyilsə də, iki nəfər Azərbaycandan gedib. Ümumiyyətlə, əməliyyat qrupunun buradan getməsi pis qarşılana bilərdi. Çünki o şəxs dövlət canisi deyil, terror hadisəsi törətməyib. Bu sözlərimlə Zamirə Hacıyevaya haqq qazandırmıram. Demək istəyirəm ki, Zamirə Hacıyevanın ittiham edilməsi London üçün hətta gülməli gələ bilər. Nəinki Böyük Britaniya, digər Avropa ölkələrinin də qanunları imkan vermir ki, bu ittihamlar üzrə kimsə ölkədən təhvil verilsin".

**İ.İsmayıl bankirin arvadının gətirilməsi üçün olan yollardan da danışdı:** "Böyük Britaniya digər Avropa ölkələrindən tamam fərqlidir. Bu yaxınlarda belə bir məqalə var idi ki, hətta İslam Kərimovun qızı Gülnarənin müxtəlif qanunsuz yollarla London banklarına köçürdüyü pullar geri qaytarılası deyil. Çünki xüsusi qanunlar var. İndiyə qədər kimsənin əmlakı qaytarılmayıb. Zamirə Hacıyevanın milyardlarla pulları olsa belə, yenə də geri qaytarılası deyil. Bank bu şəxsə pul verib. Onu necə, nə üçün veriblər, artıq bunlar Londonluq deyil. Bank ittiham olunmalıdır, Zamirə Hacıyeva yox. Əgər o şəxs adam öldürsəydi, danışıqlar aparıb, bəlkə də onu geri almaq olardı. Amma bu maddə ilə onun geri qaytarılması heç cür mümkün deyil. Londonu çirkli pulların yuyulmasında "ana vətən" adlandırmaq da düzgün deyil. Sadəcə özlərinin qanunları var və buna uyğun da hərəkət edilir. Yəni qanunlarında hər hansı bir əmlakın, yaxud pulun geri qaytarılması məsələsi yoxdur. Zamirə Hacıyeva məsələsində onlar deyəcəklər ki, bu problem bizim deyil, sizlərin problemidir. İngiltərəni çiçəkləndirən amillərdən biri də, müsəlman ölkələrindən pulların banklarına köçürülməsi və yatırılan investisiyalardır".

❑ **C.ABBASLI**

# İlqar Məmmədov həbsxanadan açıqlama yaydı - REAL sürətlə partiyalaşır

## **Azər Qasımlı:** "Biz Azərbaycanın partiyası olacağıq"

**Həbsdə olan REAL hərəkatının sədri İlqar Məmmədov qurumun partiyaya çevrilməsi ilə bağlı önəmli açıqlama verib. Hərəkatın idarə olunması ilə bağlı idarə heyətinin üzvü Azər Qasımlıya geniş səlahiyyətlər verib. Bu barədə məlumat onun bloqunda yerləşdirilib.**



İlqar Məmmədov

İ.Məmmədov qərarını bu cür əsaslandırıb: "Məsələn, Respublikaçı Alternativi bəlkə də daha sürətlə partiyaya çevirmək gərək idi. Doğrudur, bu məsələdə İdarə Heyəti Azər Qasımlıya səlahiyyətlər verib. Ancaq əslində ona əməlli kart-blanş verilməli və iş sürətləndirilməlidir. Bu baxımdan Azər Qasımlıya öz tərəfimdən kart-blanş verirəm. Onun partiya quruculuğu planı ilə tanışam və bəyənirəm. Bundan sonra hesab edin ki, partiyalaşma mövzusunda danışanda mən danışıram, iş görəndə mən iş görürəm. İnanıram ki, bu səlahiyyətdən Azər Qasımlı həmişəki kimi yüksək məsuliyyəti və peşəkarlığı ilə istifadə edəcək".

A.Qasımlı "Yeni Müsavat"a açıqlamasında bunları deyib: "Bu qərar yeni deyil, çoxdan verilib. Son iki ildə bununla bağlı çox işlər görülüb. REAL artıq ölkənin 70%-ni əhatə edib, yəni yerli təşkilatlarımız, məclislərimiz var. Biz bu işləri görmüşük, hazırda da işlərimiz bu istiqamətdə davam edir. Lakin partiya olmaq üçün hələ görüləsi işlər var. Öncəliklə qurultay keçirilməlidir. İlqar bəy bu açıqlaması ilə bizlərə çatdırmaq istəyir ki, işləri sürətləndirmək, aktiv olmaq lazımdır".

**REAL funksioneri İ.Məmmədovun belə açıqlama verməsinin səbəblərindən danışdı:** "Referendumdan sonra iqtisadi böhranın dərinləşəcəyi qaçılmazdır. Ölkə xarici və daxilində hər kəsə məlumdur ki, 2017-ci il iqtisadi-sosial baxımdan bu ildən daha ağır olacaq. Ümumiyyətlə, bundan sonrakı illər, ən azı yaxın 5 il çətin olacaq. Ölkəyə iqtisadi islahatlar və neft asılılığından qurtulmaq lazımdır. Bunları etməyin yolu siyasi islahatlardan keçir. Referenduma çıxarılan dəyişikliklər təəssüflər olsun ki, siyasi islahatlar hesab oluna bilməz. Edilən dəyişikliklər sistemi daha da böhranlı hala gətirəcək. İlk növbədə hakimiyyət daxilində ciddi parçalanmalar, qarşıdurmalar olacaq. Bunun da cəmiyyətə təsiri şübhəsizdir. Nəticədə cəmiyyətdə siyasi aktivlik artacaq. Digər tərəfdən də insanların sosial vəziyyətinin ağırlaşması siyasi meydanda əlavə canlanmaya səbəb olacaq. Belə proseslərin getdiyi bir vaxtda REAL kənarda qala bilməz. REAL güclənməli və siyasi iradəsini ortaya qoymalıdır. İlqar bəyin bəyanatının məğzini məhz bu təşkil edir".

**REAL-ın İdarə Hetəyinin üzvü partiyanın qeydə alınmamasını onların fəaliyyətinə əngəl yaratmayacağı qənaətindədir:** "Bizim qeydə alınmamağımız düşünürəm ki, ciddi problem olmayacaq. Çünki qeydiyyat məsələsi Azərbaycan siyasi sistemində o qədər də önəm daşımır. Bizim üçün vacib olan odur ki, bu gün REAL var, onun sədri, İdarə Heyəti, üzvləri və tərəfdarları var. Bir gün bunlar partiya formatında, təşkilatlanmış və daha mütəşəkkil olacaq. Bunu etmək üçün isə qeydiyyat vacib deyil. Önəmli olan bizim fəaliyyətimizdir".

A.Qasımlı REAL-ın ABŞ səfirliyi ilə yaxın olmasının fəaliyyətlərinə təsir edib-etməyəcəyi barədə sualımızı bu cür cavablandırdı: "Biz Azərbaycanın, xalqımızın, seçicilərimizin partiyası olacağıq. Biz Azərbaycan cəmiyyətinin içərisindən çıxmış, xalqın içində fəaliyyət göstərmiş şəxslərik və bundan sonra da bu belə olacaq. Bütün səfirliklərə də siyasi məsafəmiz eynidir".

❑ **CAVANŞİR**

# "Mətanət İsgəndərli MTN-in agenti olub" - Elşad Abdullayevdən şok iddia

## Sabiq rektor itkin düşmüş qardaşı ilə bağlı yenə müğənnini ittiham etdi; mətbuat katibinə danışmaq qadağası qoyulub

**"Maddi sübutlarla, tam məsuliyyətlə təsdiq edirəm ki, Mahir Abdullayevi məkan-yer etibarı ilə müğənni Mətanət İsgəndərlinin evindən oğurlayıblar. Bu, konkret cinayət faktıdır, iddia deyil. Mahir Abdullayevin son getdiyi ünvan: Bakı şəhəri, Nizami küçəsi, ev 4, mənzil 8-müğənni Mətanət İsgəndərlinin evi olub. "**



Mətanət İsgəndərli

Bu sözləri Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru, hazırda Fransada yaşayan Elşad Abdullayev "Hüriyyət" qəzetinə göndərdiyi məktubunda qeyd edib. E.Abdullayevin iddialarına görə, qardaşının oğurlanması cinayətinin bilavasitə təşkilatçısı keçmiş MTN-in birinci müavini general Hilal Əsədov olub.

Sabiq rektor həmçinin bildirib ki, məlum cinayətin şahidləri müğənni Mətanət İsgəndərlinin ailə üzvləri, bacısı Təranə, dayısı oğlu-sürücüsü Teymur və onun anası, bacısı, prodüseri Ələddin və bu günə qədər mediada ictimailəşdirilən şəxslərdir: "Mətanət İsgəndərli həmişə MTN-in birinci müavini KQB generalı Hilal Əsədovun agenti olub, onunla iş birliyində olub. Hilal Əsədov da Mətanəti bu günə qədər həbslərdən qoruyub".

**Elşad Abdullayev qardaşının oğurlanması ilə bağlı cinayət əməlinə görə müğənninin müttəhim kürsündə əyləşməsini tələb edib:**

"Mətanət İsgəndərlinin mediada cavablarına diqqət yetirdikdə onun əməkdar artisti-müğənni dilində deyil, bir kriminal, professional "oğru dili"ndə danışdığını görürük... Nə qədər ki, Hilal Əsədov və müğənni Mətanət İsgəndərli azadlıqdadır, heç bir vaxt Akif Çovdarovun "MTN işi" cinayətlərinə həqiqi və obyektiv hüquqi qiymət verilə bilməz. Onların hər ikisinin Akif Çovdarovla birlikdə məsuliyyətə cəlb olunmasını tələb edirəm".

Barəsində səslənən cinayət əməli ittihamları ilə bağlı müğənni Mətanət İsgəndərli ilə telefon əlaqəsi saxladıq. Müğənninin əvəzinə zəngimizə cavab verən, ittihamlarda adı hallanan bacısı **Təranə İsgəndərli** heç bir sualımıza cavab vermək istəmədi: "Bütün suallarınızı zəhmət olmasa mətbuat katibi Zəminə xanıma verin. Mətbuat katibini niyə özünə götürüb, yəqin ki, jurnalistləri cavablandırmaq üçün".

**Müğənninin mətbuat katibi Zəminə Rüstəmova** isə Mətanət İsgəndərlinin ona şəxsi həyatı ilə bağlı danışmağı qəti qadağan etdiyini bildirdi: "Son vaxtlar barəsinə bu cür informasiyalar dərc olunduğundan o, ümumiyyətlə şəxsi həyatından danışmaq istəmir. Özü qadağan qoyduğu üçün mənim də ixtiyarım yoxdur bu barədə danışmağa. Yəni, qadağaya görə zəng vurub bu barədə heç nə soruşmuram".

*"Niyə digər müğənninin deyil, məhz Mətanət İsgəndərlinin bu işlərdə adı hallanır?"* sualımıza mətbuat katibi bu cür cavab verdi: "Çünki ortalığa bir balaca bir mövzu atıldı. Mətanət xanım da gördü ki, danışanda hər dəfə bir şey çıxacaq və məsələ getdikcə yanlış tərəfə böyüyəcək, ona görə də danışmır".

Mətbuat katibi onu da vurğuladı ki, müğənni haqqında yalan ittihamlar səsləndirən şəxslər barəsində məhkəməyə müraciət etməyi düşünür.

Xatırladaq ki, bundan öncə də ABU-nun sabiq rektoru Elşad Abdullayev qardaşı Mahir Abdullayevin oğurlanmasında dəfələrlə müğənni Mətanət İsgəndərlinin adını çəkib. Mətbuata göndərdiyi açıqlamalarda E.Abdullayev iddia edib ki, Mahir Mətanət İsgəndərlinin evinə israrlı telefon zəngləri ilə dəvət edilib, burada dava olub, davadan sonra Mahir Abdullayev Bakı Şəhər Baş Polis İdarəsinə aparılıb, bir neçə gün sonra isə MTN-ə gətirilib və bundan sonra ondan heç bir xəbər almaq mümkün olmayıb.

❑ **Xalìdə GƏRAY**



# Güllə də yoxdur

Zamin HACI
zaminhaci@gmail.com

(Müəllimlər günü münasibəti ilə təbrik əvəzi)

**Gürcüstan hökuməti müəllimlərin maaşını artırmaq haqda qərar verib. 2017-ci il yanvarın 1-dən orada yüksək reytinqli müəllimlər ayda 472 dollar (bizim pulla 765 manat), aparıcı müəllimlər 414 dollar (670 manat), adi müəllimlər 343 dollar (556 manat), müəllim-praktikaçılar 257 dollar (416 manat) alacaqlar.**

Bizim müəllimlərin isə ən böyük maaşı 450 manatı keçmir. O da min cür stavka, dərs yükü hesablamalarından, yüz cür xahiş-minnətdən, attestasiya və imtahandan-zaddan sonra! Azərbaycanda müəllimlər orta hesabla 200-300 manat maaş alırlar - Gürcüstandakı praktikantdan da az. Gələn ilin büdcəsində isə müəllimlərin maaşını artırmaq üçün heç bir vəsait nəzərdə tutulmayıb. Bəlkə prezidentin ehtiyat fondu kimi qəribə mistik fondlara ümid eləmək olardı, ancaq onların da 2017 büdcəsində ciddi kəsiri var, hamısı azaldılıb.

İndi qəribə olan nədir? Prinsipcə, müəllimlər yapistlərin hər cür qara işlərində (referendum, repressiya, yalan təşviqatı, millətin təşkil edilmiş formada deqradasiya olunması, manqurtlaşdırma və sairə) alət olublar, ancaq onlara pul verilmir. Gürcüstan müəllimləri isə belə çirkin fəaliyyətlərə cəlb edilməsələr də daha yaxşı maaş alırlar. Bu da azadlığın gözəllikləri silsiləsindən bir haldır. Qula ağası heç bir hörmət qoymur. Azad yaşayacaqsan, azad adam kimi də əməyinə hörmət olacaq. Bizdə ancaq qladiator qullara hörmət az-maz qalır, onların silahı, yemək-içməyi hələlik kəsilməyib. Başqa kateqoriyadan qullar üçün çətindir.

Pulun kəsilməsi temasında bir sovet lətifəsi yadıma düşdü, yeridir, onu yazım. Bir gün yəhudi Rabinoviç SSRİ-dən İsrailə köçmək üçün sənəd verir. DTK bunu çağırır, sorğu-sual edirlər: "Nə üçün İsrailə köçmək istəyirsiniz? Burda sizə nə pisdir?". Rabinoviç deyir: "Ət yox, yağ yox, balıq yox, kolbasa yox... İyirmi il qabaq yenə nəsə tapmaq olurdu, indi yaşamaq mümkün deyil". DTK zabiti deyir: "Yaxşı fikirləş, bu cür danışığa görə iyirmi il qabaq bilirsən də sənə nə edərdilər? Təpənə gülləni çaxardılar!". Rabinoviç: "Bax, görürsən, indi sizin heç gülləniz də yoxdur!" Güllə demişkən, indi hərbi büdcəmiz də 4 dəfə azalıb.

Bir biədəb məsəl var, deyir yaxşı rəqqasa yumurtalar mane ola bilməz. Pulun azalması isə mane olur. Yayda mədəniyyət naziri Əbülfəs müəllim Dövlət Rəqs Ansamblının bədii rəhbəri Afaq Məlikovaya şiddətli töhmət vermişdi. Deyir, əvvəlki kimi oynaya bilmirsiniz. Düz deyir. Ancaq rəqqaslar da düz eləyir oynamır. Acqarına oynamaq yaxşı şeydirsə, qoy birinci nazirlər özləri oynasın. O kinoda deyilən kimi, musiqi başqa yerdən (oxu: Gürcüstandan) gəlir, bizdən isə burda oynamaq tələb olunur.

Dövlətin öz statistikasına görə Azərbaycandan xaricə satılan məhsulun 94 faizi enerji daşıyıcılarıdır. Neft, qaz, mal təzəyi və sairə. 1,63 faiz bitki və heyvan mənşəli yağ satırıq. İxracda meyvə-tərəvəz 0,53 faizdir. Regionların "uğurlu inkişafı", "kənd təsərrüfatının dirçəlməsi" bax, budur. Uzun illər neftə söykənən iqtisadiyyatımıza "aldım qoz, satdım qoz" modelli iqtisadiyyat deyə bilərik. Yalan dumanı çəkilib, gözlər açılıb, özü də dörd açılıb. Millət baxır, görür ortada heç zad yoxdur. 120 milyarddan artıq neft pulu, Mətanət Əlverdi demişkən, külək kimi əsib keçib, elə bil heç olmayıbdır. Ancaq insaf naminə, 120 milyarddan bizə qalan şeylər də oldu: 3 pinqvin binası, "Olimpiya stadionu" şadlıq sarayı, aeroport yolu (nə də olsa onu cağbacağ saxlamaq lazımdır, aradan çıxmaq üçün yeganə qısa yoldur), Lələtəpə və Xaləddin müəllimin Binəqədidə düzəltdiyi bir neçə təpə.

**Buna da şükür. Vallah, bunları da verməyə bilərdilər, guya nə deyərdik? Sağ olsunlar. Allah bizim təhsil sisteminin ömründən kəsib siyasi sistemə versin. Bunlar yeyib doyub, manatı öldürüb, qiyməti qaldırıblar, guya başqası gəlsə nə edəcək?**

# Əsəd başəri yenə üz-üzə qoydu- ABŞ və Rusiya...

## Amerika diplomatiyasının "ağır topu" təcili Moskvaya gedir; ekspertlərdən həyəcanlı xəbərdarlıqlar; Türkiyə də proseslərin içində...

**Suriya böhranı yeni və daha təhlükəli mərhələyə qədəm qoyub. Ən təhlükəlisi isə ABŞ və Rusiya maraqlarının heç vaxt olmadığı qədər toqquşma həddinə gəlməsidir. Bu ziddiyyətlər xüsusən də strateji əhəmiyyətli Hələb şəhəri uğrunda Moskvanın dəstəklədiyi Bəşər Əsəd qüvvələri ilə ABŞ-ın müdafiə elədiyi müxalif silahlı qüvvələr arasında gedən amansız mübarizədə özünü qabarı büruzə verməkdədir.**

**Bəlli olduğu kimi, iş o yerə çatıb ki, dinc əhaliyə humanitar yardım aparan karvanı Rusiya aviasiyası bombardman edib. Bundan sonra atəşkəs rejimi haqda anlaşma tamamilə qüvvəsini itirdi, hətta ABŞ Rusiya ilə danışıqları dayandırdığını bəyan elədi, Moskvaya qarşı yunu və daha sərt sanksiyaların qəbul ediləcəyinin anonsu verdi. Bu xüsusda Dövlət Departamentinin rəsmisi Con Kibri artıq ABŞ-ın səbrinin tükəndiyini bildirdi. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə cavabında bildirdi ki, Vaşinqton Suriya üzrə əldə olunan razılaşmanı yerinə yetirməyib və məsuliyyəti üzərindən atmağa çalışır.**

***

Maraqlıdır ki, bu gərginlik fonunda üstəlik, Rusiyada iki Amerika diplomatını zəhərlənməsi xəbəri yayılıb. Xəbərə görə, ABŞ-ın diplomatik pasport daşıyan iki rəsmisi ötən il Rusiyada bir konfrans zamanı zəhərləməyə çalışıblar (Virtualaz.org). Rəsmilər bunu Rusiyanın Amerika diplomatlarına qarşı daha geniş, artan qısnama kampaniyasının bir hissəsi olduğunu deyirlər.

Hadisənin ötən ilin noyabrında Sankt-Peterburqda BMT-nin antikorrupsiya konfransı çərçivəsində bir oteldə baş verdiyi deyilir. Olay Amerika Dövlət Departamentinin narahatlığına səbəb olub, qurum Moskvaya sakitcə etirazını da bildirib. Amma Vaşinqton rəsmiləri noyabr hadisəsinə bu ilin iyununda baş vermiş dramatik insidentdən sonra yenidən baxıb, bunun müəyyən bir kampaniyanın tərkib hissəsi olması qənaətinə gəliblər. Belə ki, iyunda Moskvadakı ABŞ səfirliyi qarşısında bir amerikalı diplomat mühafizəçi tərəfindən döyülüb. Departamenti bildirir ki, son iki ildə Rusiyada amerikalı diplomatlara qarşı təqib kampaniyası gedir.

Bu arada - vəziyyətin kritik şəkil aldığı məqamda Amerika diplomatiyasının "ağır topu" sayılan, dövlət katibinin Avropa və Asiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın təcili Moskvaya uçacağı xəbəri də yayılıb. Məlumata görə, V.Nuland Moskvaya Brüsseldən gələcək. Lakin onun Rusiyanın rəhbər şəxsləri ilə görüşləri bu günə nəzərdə tutulub. Heç şübhəsiz, əsas müzakirə mövzusu Suriya böhranı, bu böhrandan çıxış imkanları, iki qlobal gücün toqquşmasından yayınmaq yolları olacaq.

***

Siyasi və hərbi ekspertlər də vəziyyətin ciddiliyinə diqqət yönəltməyə, hətta böyük müharibə haqda xəbərdarlıqlar etməyə başlayıblar.



"Suriyada ABŞ və Rusiya arasında hərbi münaqişə mümkündür". Publika.az "RİA-Novosti" agentliyinə istinadən xəbər verir ki, bu fikirlə hərbi politoloq, Q.V. Plexanov adına Rusiya İqtisadi Universitetinin sosiologiya kafedrasının dosenti Aleksandr Perendjiyev çıxış edib.

"Təəssüf ki, Suriyada Rusiya və ABŞ arasında hərbi münaqişəsi mümkündür. Bu, həm də dolayısı ilə artıq baş verib: Rusiya tərəfi terrorçuları bombalayırdılar, amma bazada amerikalılar olub. Amerikalılar Suriyanın hökumət qoşunlarının bölmələrinə atəş açır və bombalayırdılar, amma orada bizim hərbi məsləhətçilərimiz var idi", - ekspert bildirib.

Analitik yaranmış vəziyyəti ciddi adlandırıb. Bununla belə, onun fikrincə, qlobal hərbi münaqişədən və Rusiya ilə Amerika silahlı qüvvələrinin birbaşa toqquşmasından qaçmaq mümkündür: "Ümid edirəm ki, birbaşa hərbi toqquşma olmayacaq. Rusiya-Amerika danışıqlarının əsas məqsədi hərbi toqquşmaya icazə verilməməsi olmalıdır".

***

"Dünya hazırda çox gərgin dövrünü yaşayır. ABŞ və Rusiya arasında kəskin, barışmaz xarakter alan münasibətlər böyük fəlakətlərlə nəticələnə bilər". Bu sözləri sabiq dövlət müşaviri Qabil Hüseynli deyib (Axar.az). Rusiya-ABŞ rəqabətinin xüsusilə Suriyada pik həddə çatdığını deyən politoloq iki ölkə münasibətlərinin tam qarşıdurma səviyyəsində olduğunu bildirib: "Rusiya Amerikanın hegemonluq siyasətinə qarşı dayandığını bildirsə də, əslində, vəziyyət heç də göründüyü kimi deyil. ABŞ Rusiyaya qarşı fövqəladə tədbirlərini davam etdirir: bunlar sanksiyalar və Suriyada hərbi əməliyyatlar şəklində ola bilər. Hərbi əməliyyatların Amerika qoşunları tərəfindən həyata keçirilməsi mütləq deyil, bunu Vaşinqtonun bölgədəki tərəfdarları da yerinə yetirə bilər. ASO və kürd peşmərgələrinin istənilən zaman Rusiyanın bazasına terror hücumları Rusiyanın Suriyadan vurulub çıxarılmasına, ən son nəticədə isə Amerikanın Bəşər Əsədlə haqq-hesabı çürütməsinə gətirib çıxara bilər. Moskva isə Əsədə toxunulacağı təqdirdə bunun dünya müharibəsinə səbəb olacağını bildirir. Tərəflər hədsiz təhdidedici bəyanatlardan çəkinmirlər. Görünən odur ki, Səudiyyə da daxil olmaqla, ərəb ölkələrinin əksəriyyəti, eləcə də bir sıra Avropa ölkələri Rusiya və İranın Suriyadan çıxarılması istiqamətində müəyyən addımların atılmasını həm BMT, həm də konkret hərbi hərəkətlər səviyyəsində həyata keçirmək niyyətindədir".

Vəziyyətin kritik olduğunu söyləyən politoloq əlavə edib ki, yaxın zamanlarda Rusiyaya qarşı sanksiyaların yeni dalğasının şahidi ola bilərik: "Üstəlik, Suriyada rus qoşunlarına müxtəlif hücumlar da istisna deyil. Düzdür, ruslar ASO-nu dənizdən ballistik raketlərlə vuracaqları ilə təhdid edirlər. Ancaq hər halda vəziyyət Kremlin düşündüyü qədər sadə deyil. Proseslər Rusiya və İranın əleyhinə işləyir. Çünki Səudiyyə də Suriyada nəinki fəaliyyətini artırır, Ər-Riyadı təmsil edən müsəlman ittifaqını da gücləndirir. Dünya hazırda çox gərgin dövrünü yaşayır. ABŞ və Rusiya arasında kəskin, barışmaz xarakter alan münasibətlər böyük fəlakətlərlə nəticələnə bilər. III Dünya savaşı heç bir dövlət üçün arzulanan deyil".

***

**Beləcə, Suriya diktatoru Bəşər Əsədin hakimiyyət hərisliyi nəinki öz xalqını və ölkəsini fəlakətə sürükləyib, artıq həm də dünyanı böyük fəlakət astanasına gətirib. Onu da yaddan çıxarmaq olmaz ki, böhrana artıq Türkiyə də cəlb olunub - qardaş ölkənin qoşunları da burada Əsəd rejiminə və İŞİD-ə qarşı ASO tərəfdə hərbi əməliyyatlarda iştirak edir.**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016

# "İsgəndər" İrəvanın öz başında partlaya bilər- erməni politoloq

## "Azərbaycan Qarabağa hücum üçün hüquqi-siyasi zəmini artıq hazırlayıb"

**Ermənistan politoloqu, qondarma "DQR"in keçmş "xarici işlər naziri" Arman Melikyan erməni saytına maraqlı açıqlama verib. O, "İsgəndər"lərin əslində Ermənistan ərazisində çoxdan olduğunu söyləyib. Onun fikrincə, bu fakt Azərbaycanı apreldə erməni mövqelərinə hücum etməkdən çəkindirməyib:**



""İsgəndər"lər paradda nümayişindən sonra Rusiya və Azərbaycan arasında "hava-hava" və ""hava-yer" taktik raketlərinin yeni nəslinin istehsalı ilə bağlı danışıqlar başlayıb. Yaddan çıxarmayaq ki, Rusiya dünyanın ən böyük silah istehsalçısı və ixracatçılarından biridir. Real müharibə şəraitində Rusiya istehsalı olan silahların müvəffəqiyyətli tətbiqi həmin silahlar üçün əlavə reklam ola bilər. Suriyada istifadə olunan hava əleyhinə müdafiə sistemləri, habelə bomba və raketlər Moskva üçün canlı reklam sərgisinə çevrilib. Qarabağ bölgəsində hərbi əməliyyatların başlaması təhlükəsi və bu təhlükənin aprel ayında gerçəkləşməsi bölgə dövlətlərini silahlanma məsələsində yenidən yarışa girməsinə səbəb oldu. Ermənistanın müstəqilliyinin 25 illiyində nümayiş etdirilən "İsgəndər"lər isə bu yarışı daha da qızışdıra bilər.

Bəlkə də səhv edirəm, lakin bildiyimə görə, bu sistemlər Ermənistanda uzun müddətdir ki, mövcuddur. Çətin ki Azərbaycanın da aprel ayına qədər bundan xəbəri olmamış olsun. Daha doğrusu, Azərbaycan bunu bildiyi halda belə hərbi əməliyyatlara başlamaqdan çəkinmədi. Yəqin ki, erməni tərəfinin bu raketlərdən istifadə edə bilməyəcəyinə əmin olublar. Belə çıxır, müharibə şəraitində istifadə edilə bilməyən silahlar ancaq Rusiya-Azərbaycan əməkdaşlığına xidmət edir".

"ABŞ dövlət katibi Con Kerri Qarabağ münaqişəsinin həlli üçün şərtlər görmədiyini söyləyib. Prezidentlərin yeni görüşü barədə isə hər hansı informasiya yoxdur. Belə olan halda danışıqlar preosesinin dalana dirəndiyini söyləmək olarmı" sualına Məlikyan belə cavab verib: "Madrid prinsipləri sülh prosesi üçün heç bir əsas vermir. Bizim hakim elitamız isə əgər uzaqgörənlik və müdriklik nümayiş etdirsəydi, həm aprel döyüşlərinin qarşısı alınardı, həm də snayper qurbanlarının sayı azalardı. İndi belə bir təəssürat yaranır ki, rəsmi İrəvan yalnız Vyana və Sankt-Peterburq görüşlərində əldə olunan razılaşmaların yerinə yetirilməsindən sonra yeni görüşə razılıq verəcək. Bu cür yanaşma, əlbəttə, vaxt udmaq üçün yaxşıdır, lakin bu rəsmi İrəvanın yeni siyasi xətt işləyib hazırladığına və gerçəkləşdirmək istədiyinə dəlalət etmir".

Erməni politoloq müharibənin real olduğunu vurğulayıb: "Azərbaycan tərəfi 20 ildir ki, arzu etdiyi hədəfə danışıqlar yolu ilə olmasa da, hərbi vasitə nail olmaq üçün çalışmaqdadır. Rəsmi Bakı Qarabağa ediləcək hücumun beynəlxalq birlik tərəfindən işğal olunmuş ərazilərin azad edilməsin qanuniliyinin qəbul etdirilməsi üçün hüquqi və siyasi zəmini artıq yaradıb. Bu bizim həyati maraqlarımız üçün böyük təhdid yaradır və böyük təəssüflə bu məsələdə öz payımızın az olmadığını qeyd etmək istərdim".

❑ **Vaqif HÜSEYN**

# Erməni prezident "at"ını niyə dəyişdi-Ohanyanın istefası...

## Hərbi ekspert: "Qarabağ məsələsində ermənilərin siyasəti dəyişməyəcək"

**"Seyran Ohanyanın Ermənistanın müdafiə naziri postundan uzaqlaşdırılması və onun yerinə mülki şəxsin təyin edilməsi əslində elə də ciddi hadisə deyil".**

Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov Xocalı soyqırımının əsas iştirakçılarından olan Ohanyanın müdafiə naziri vəzifəsində çıxarılmasına münasibət bildirərkən deyib. Ekspertin fikrincə, Ohanyanın son zamanlar diqqət mərkəzində olması, onun özünün və ailəsinin hərəkətləri ilə bağlı çoxsaylı məlumatlar, həmçinin prezident Sərkisyanla aralarında yaşanan problemlər sonda nazir dəyişikliyinə səbəb oldu.

**Ş.Ramaldanovun sözlərinə görə, silahlı qüvvələri idarə edən Baş Qərargah rəisidir. Bu səbəbdən də ekspert Xocalı cəlladlarından olan Movses Akopyanın Baş Qərargah rəisi təyin edilməsinə fərqli yanaşır:** "Bu təyinat onu göstərir ki, Qarabağ məsələsində Ermənistanın siyasəti dəyişməyəcək. Onlar açıq göstərirlər ki, sülh danışıqlarına getməyəcəklər. İşğalçı ölkənin beynəlxalq səviyyədə sərgilədikləri azğın hərəkətlər, İrəvanda keçirdikləri hərbi parad da bunu təsdiqləyir. Yəni Ermənistan Qarabağdan əl çəkmək niyyətində deyil. Onlar xoşluqla heç bir kompromisə getmək istəmirlər".

**Hərbi ekspert Azad İsazadə** isə məsələ ilə bağlı modern.az-a bildirib ki, budəfəki dəyişiklik daha çox daxili siyasətin problemlərini həll etmək üçün edilib. "Bu qruplaşmalar arasında olan toqquşmaların nəticəsidir. Aprel döyüşləri zamanı Seyran Ohanyan bacarıqsızlığı, səriştəsizliyin göstərdi. Serj Sərkisyan da aprel döyüşlərində Ermənistanın məğlubiyyətində Ohanyanı günahkar bilərək onu vəzifəsindən azad etdi. Ancaq prinsipial olaraq Azərbaycan üçün böyük bir fərq yoxdur. Ermənistan hərbiçiləri daha aqressiv, daha kompromissiz mövqe göstərdikləri üçün heç bir nəticə əldə edə bilməyəcəklər. Yeni gələn hərbi rəhbər obyektiv olmalıdır. Amma aydındır ki, bu gün Ermənistan praktiki çıxılmaz vəziyyətdədir. Bir tərəfdən başa düşürlər ki, döyüşlər başlasa növbəti uğursuzluqlarla qarşılaşa bilərlər, o biri tərəfdən də kompromislərə gedə bilmirlər, çünki daxili problemlərlə qarşılaşacaqlar. Çox güman ki, bu dəyişikliklər təkcə hərbi rəhbərlikdə olmayacaq, siyasi rəhbərlikdə də dəyişikliklər olacaq".



Seyran Ohanyan

Ekspert bildirib ki, yeni hərbi rəhbərlik uğurlu əməliyyat keçirərək göstərməyə çalışacaq ki, o bu təyinata layiqlidir. "Hər bir zaman münaqişə qızışa bilər. Bəzən risk fazi azala, bəzən isə arta bilər. Qızışmaq üçün təhlükəli məqam o ola bilər ki, daxili vəziyyət gərginləşər və hakimiyyətdə qalmaq üçün döyüşləri başlaya bilərlər".

**Ş.Ramaldanov da açıqlamasında aprel savaşının təkrarını da istisna etmədi:** "Ermənistanın siyasətindən müharibə havası gəlir. Bu, qaçılmazdır. Bizim bütün apardığımız işlər də hərbi qüdrətimizin artırılmasına yönəlib. Bizim dövlət də silahlı qüvvələrə aid məsələlərdə heç nəyi əsirgəmir. Artıq Ali Baş Komandan bununla bağlı növbəti göstərişlərini verib. Müharibə hər an başlaya bilər. Ancaq şübhəniz olmasın ki, işğalçıları ərazilərimizdən qovmaq üçün bizim hər cür imkanlarımız var. Biz zamanı gələndə öz sözümüzü deyəcəyik. Hər kəs bilməlidir ki, biz özümüz torpaqlarımızı azad etməliyik, başqa yolumuz yoxdur". Ekspert danışıqlara start verilməsi istiqamətində göstərilən cəhdləri də faydasız sayır: "Beynəlxalq qurumlar da mətləbə çatanda deyirlər ki, ölkə rəhbərləri gərək ortaya iradə qoysunlar. Faktiki olaraq beynəlxalq qurumalar öz imkanlarından istifadə etmirlər. Onlar üçün münaqişənin bu formasının qalması daha sərfəlidir".

❑ **E.PAŞASOY**

# Şəkillərdən boylanan Şuşa



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Elektron KİV-lərdə işğal altındakı Şuşadan son fotolar yayılıb. Onlara həyəcansız, soyuqqanlı baxmaq olmur. Əlalxüsus da şəhərin girişindəki azərbaycanca (kirilcə) "Şuşa" sözünün ermənicə "Şuşa" ilə əvəzləndiyini görmək adamı sıxır, qürura toxunur.**

Heç şübhəsiz, bu qədim diyarımızdan didərgin düşmüş soydaşlarımız həmin şəkillərdən hamıdan çox təsirlənib. Zarafat gəlməsin, zorla tərk edib getməli olduğun doğma yurdunu, uşaqlığının, gəncliyinin keçdiyi el-obanı on illər sonra yalnız şəkillərdən görüb özünə təsəlli tapa bilirsən. Heç kim inciməsin, bu dərdi, ağrı-acını, sızıltını köçkün düşməyən bilməz!

Şuşa həmişəlik itirilibmi, Şuşa ermənininin oldumu? Nə yaxşı ki, suala təsdiqi cavab yoxdur. Bu, hələ ki bizim əsas təsəllimizdir. Çünki Şuşa 25 ildir sadəcə, girovluqdadır. Lap dəqiqi, erməni əsirliyindədir. Onu, işğalı düşmən rəsmiləşdirə bilməyib, rəsmiləşdirə bilmir. Bir dəfə yazmışdıq, çünki "kupçası", sənədi-sünədi bizdədir.

Doğru, Şuşanın əsirliyi az qala müstəqilliyimizlə yaşıddır. Yaman uzandı bu işğal... Ümid isə sonsuzdur. Təsəlli həm də onadır ki, Şuşa ermənilər tərəfindən hələ də bir elə məskunlaşdırılmayıb. Onlar yalnız hər il işğal günü şəhərdə təntənəli törən təşkil eləməklə sanki onun erməni şəhəri olmasını dünyaya göstərmək, bir növ Azərbaycana acıq vermək istəyirlər.

Halbuki, bir yer, torpaq, ərazi insanlarla məskunlaşmırsa, Dədə Qorqud demiş, əkilib-becərilmirsə, o, ən azından heç kimindir, yəni yiyəsizdir. Şuşa da elə: ermənilərin nəzarətində olsa da, ora zirehli texnika yığsalar da, ermənilərin deyil. Şuşa onlara yaddır. Doğma olsaydı, ermənilər 25 ildə orda kök salar, iş yerləri açar, tikər-yaradar, artıb-törəyərdilər. Bunlar yoxdur!

Şuşada erməni kilsəsi də tikiblər, amma nə xeyri? Yenə Şuşa ermənıyə doğmalaşmayıb. Çünki erməni gözəl bilir ki, gec-tez onun gerçək sahibi gələcək. Şəhərin girişindəki azərbaycanca lövhəni ermənicəyə dəyişməklə deyil. Biz Şuşadan, imtina etməyincə, onun "kupça"sını düşmənə verməyincə, o, heç vaxt ermənin olmayacaq!

Bu mənada ermənilər Şuşanı işğal eləməklə əslində uduzublar. Çünki onu özününküləşdirə, erməniləşdirə bilməyibilər. Bu, mümkün də deyildi. Faşistlər kimi, bir gün erməni işğalçı tör-töküntüləri də gəldikləri kimi cəhənnəm olub gedəcəklər. Həmin günü tezləşdirmək təəssüf ki, indi tək Azərbaycandan yox, həm də regionda və dünyada gedən proseslərin konyunkturasından asılı duruma gəlib. Əlverişli məqamı, fürsəti gözləmək zorundayıq.

İş də ondadır ki, bu, tək erməni işğalı deyil. Daha çox Rusiyanın işğalı, Rusiya ilə şərikli işğaldır. Bizim davamız Ermənistanla olsaydı, nə var idi ki - cavabını uzağı, 1-2 həftəyə verə, 1-2 həftə içində düşmənlə haqq-hesabı çürüdərdik, Şuşa bunca girovluqda qalmazdı.

Bizim davamız ermənininin arxasındakı Rusiya ilədir. Bu ilin aprel döyüşləri zamanı bir daha buna əminlik hasil elədik. Hücumda olan Azərbaycan ordusunun yürüşünü yalnız ermənilərin yalvarışı və xahişi ilə Rusiya dayandırmalı olmadımı?

Bu iki amil təsəllidən də çox, bizə aydın mesajdır ki, bəli, biz Dağlıq Qarabağı, Şuşanı itirmişik, amma Dağlıq Qarabağ, Şuşa klassik anlamda erməniləşməyib, ermənininin olmayıb. Düşmən bunu bacarmayıb, işğalı, etnik təmizlənməni rəsmiləşdirə, dünyaya qəbul etdirə bilməyib.

Separatçı rejimin "müstəqilliyinin" hətta Ermənistanın özü tərəfindən belə indiyədək tanınması da ermənilərin öz "hərbi qələbəsi"nə inamsızlığının, onun saxta, ən yaxşı halda ruslarla şərikli olduğunun növbəti bariz sübutudur.

Müxtəsəri, nə qədər ki, hətta yerli erməni də özünü Qarabağda, Şuşada narahat hiss edir, daima müharibə qorxusu altında yaşayır, nə Şuşa, nə də ümumən Qarabağ ermənının olmayacaq. Bu rahatlığı erməniyə yalnız Azərbaycan xalqı bəxş edə, qaytara bilər - Şuşanı, Qarabağı oradakı yerli ermənilərlə birgə Azərbaycan tərkibinə qaytarmaqla.

**Erməni nə qədər tez bu gerçəyi anlasa, bir o qədər onun özü üçün yaxşı olar. Çünki Şuşanın azadlığı həm də Qarabağ ermənilərinin girovluqdan azadlığı demək olacaq, yalnız bədbəxtçilik vəd edən saxta "müstəqillik"dən qurtuluş demək olacaq.**



# Təhlükəli gedişat - ermənilər seçki marafonunda önə çıxır

Xalid KAZIMLI

**Bizim üçün bütün dünya bir tərəfədir, Ermənistan bir tərəfə. Əlbəttə ki, bu, sözün pis mənasında belədir. Çünki bu dövlətlə münasibətimiz düşmənçəsinədir, arada 70 il boyunca aramızda süni dostluq, mehribanlıq bərqərar edilmiş olsa da, əslində ermənilərlə düşmənçiliyimizin rəsmi ömrü 100 ili 10 il aşıb.**

Ona görə də biz illərdir qərb qonşumuzla daimi çəkişmə, rəqabət halındayıq. Bəlkə də bu üzdəndir ki, Ermənistan dövləti ilə Azərbaycan finişə doğru burun-buruna yüyürən marafançılara oxşayır. Nə onlar bizi ötə bilir, nə də biz onları.

Təbii ki, bir çox məsələlərdə arada fərqlər də var - əhalinin sayı, dövlət büdcəsi, idman nailiyyətləri, sosial rifah və s.

Amma bənzərliklər də çoxdur. Hər iki dövlətin siyasət və diplomatiya sahəsində apardığı işlər arasında qəribə bir bərabərlik var. Nə ermənilər başarılıdır, nə də biz. Nə onların dedikləri olur, nə də bizim. Onlar da qonşu dövlətlərlə gah mehribanlaşır, gah da problem yaşayırlar, biz də eyni haldayıq.

Hər iki ölkənin idarə edilməsi xüsusunda da aşağı-yuxarı eyniyyət var. Ermənistan da avtoritar idarəetmə ilə idarə olunur, Azərbaycan da. Orda da seçkilərdə həmişə hakim partiya qalib gəlir, burda da.

Bununla belə, son illər beynəlxalq təşkilatlar Ermənistanı "qismən azad olan ölkələr"in qrupuna salırlar, Azərbaycanı isə birbaşa "azad olmayan ölkələr"in siyahısına qatırlar.

Bu xüsusda rəsmilər, təbliğatçılar çox söz deyə, Azərbaycana qarşı qərəzdən, "ayrı-seçkilik"dən danışa bilərlər, amma bu "ayrı-seçkiliy"in müəyyən əsasları da var.

Məsələ ondadır ki, bizdə YAP hakimiyyəti vintləri gündən-günə daha da sıxıb-bərkitdikləri halda, Ermənistan hakimiyyəti vintləri tədricən boşaltmaqdadır.

Bu, bizə minus, Ermənistana plyus gətirir.

Məsələn, Ermənistanda keçirilən son bələdiyyə seçkilərinin nəticələrinə dair statistik göstəriciyə nəzər salaq. Rəsmən açıqlanmış göstəricilər belədir: "Gümrüdə hakim partiyanın namizədi Samvel Balasanyan 34,64% səslə qalib gəlib. Müxalifətdə hesab olunan "Tərəqqi edən Ermənistan" partiyası 21,7% səslə 2-ci yeri, "Erməni dirçəlişi" partiyası 10,62% səslə 3-cü yeri, QALA partiyası 10,49% səslə 4-cü yeri, 5,77% səslə Vəhdət partiyası 5-ci yeri, "Gümrü ruhu" partiyası isə 5, 74% -lə 6-cı yeri tutub". O biri dairələrdə də təxminən bənzər nəticə alınıb.

Eyni (və digər) seçkilər bizdə olanda isə nəticələr çox fərqli olur. Hakim partiyanın namizədləri 75 faizdən artıq səs alırlar, müxalifətçilərin adının qarşısına isə 3-5, bəzən isə, 0-la başlayan rəqəmlər (məsələn, 0,1) yazırlar.

Yoxsa Ermənistanda keçirilən seçkilərdə hakim partiyanın tətbiq etdiyi "seçki texnologiyası" ilə bizimkinin elə bir ciddi fərqi yoxdur. "Seçki karuselləri", inzibati resurslardan istifadə, nəticələri saxtalaşdırma və s. eynidir.

Bu, o deməkdir ki, artıq seçki məsələsində Ermənistan bizi üstələyir. Ölkəmizdə "müxalifət yoxdur", "müxalifətin sosial bazası və aldığı səs faizi 0-ın üzərindədir" ritorikası gücləndiyi vaxt, ermənilər dünyaya göstərirlər ki, onlarda müxalifət var və hakim partiyanın 30-40 faiz arasında səs topladığı seçkidə 20-30 faizlik səs yığa bilir.

Dövləti idarə edənlər bunun nə dərəcədə təhlükəli bir gedişat olduğunu bilməlidirlər.

İndiyəcən Ermənistan və Azərbaycan eyni dərəcədə avtoritar rejimə malik idilər və beynəlxalq təşkilatlar, qüdrətli dövlətlər onların arasında bərabərlik işarəsi qoyurdularsa, artıq vəziyyət dəyişib, Ermənistan məxməri avtoritarizmə, mötədil idarəetməyə keçirsə, rəğbət vektorları onun xeyrinə dəyişəcək.

Belə bir tendensiya artıq müşahidə olunur.

Onu da bilmək lazımdır ki, Qarabağ uğrunda gedən mübarizədə dünya birliyi heç vaxt demokratik dövlət hesab etdiyi ölkəni qoyub avtoritar rejimlə idarə olunan dövlətin tərəfində durmaz. Bu, qəti olaraq belədir.

**Bu baxımdan Azərbaycan bu sahədə də "qonşudan qalma dala" siyasəti yeritməlidir, ölkədə müxalifətin küncə sıxışdırılması, yox edilməsi prosesi durdurulmalı, yaxınlaşmaqda olan seçkilərin keçirilməsi prosesində yaxşılığa doğru dönüş edilməlidir.**



# Təhsil ocaqları "yanır"- hər gün bir ağır hadisə...

## Şagird və müəllimlərin aqressivliyinin səbəbi nədir?

**Yeni dərs ilinin başladığı hələ bir ay olmasa da, məktəblərdə sanki fəlakət yaşanır. Son bir neçə günün statistikası bizə bunu deməyə əsas verir. Son bir həftədə baş verən hadisələri qısa da olsa oxuculara xatırladaq.**

Oktyabrın 3-də paytaxtın Suraxanı rayonunda orta məktəb şagirdlərindən biri müəllimələrə hücum edib və əlindəki alətlə Sevinc adlı müəllimənin sifətinə xəsarət yetirib. Eyni gündə Suraxanı rayonunda yerləşən 104 saylı orta məktəbdə isə müəllim şagirdi döyüb, şagirdin valideyni isə polisə müraciət edib. Ağdamda isə direktor müavinini döyüb. Səbəb isə müavinin direktorun həyat yoldaşının dərsə niyə gəlməməsi ilə maraqlanması olub. Bundan qəzəblənən direktor müavinini döyüb. Daha bir məktəbli pəncərədən yıxılıb. Bu kimi hadisələrin siyahısını artırmaq da olar...

*Şagirdlər və müəllimlərdə olan bu aqresiya səbəb nədir? Orta məktəblərdə təhsilin, təlim-tərbiyə işinin aşağı olması, yoxsa həm müəllimlərin, həm də şagirdlərin evdəki problemləri özləri ilə bərabər təhsil ocaqlarına daşımasımı?*

**Psixoloq Elnur Rüstəmov** psixoloji problemlərin əvvəlki illərlə müqayisədə çox olduğunu dedi: "Bu gün uşaqların da, valideynlərin də, müəllimlərin də psixoloji narahatlıqları çoxdur. Bunun da obyektiv və subyektiv səbəbləri var. Yəni məsələyə o nöqteyi-nəzərdən yanaşsaq, bəli, bu gün psixoloji problemlər əvvəlki illərlə müqayisədə çoxdur. Bizim çətin tərbiyə olunan uşaqlarımız, yeniyetmələrimiz var ki, evdə heç valideynlər onlarla bacarmır. Bu uşaqlar məktəbdə də bəzi problemlər yaradırlar. Müəllim o demək deyil ki, o işində müəllimdir. Narahatçılığı, kaprizləri və yaxud da xarakterində hər hansısa bir nöqsan yoxdur. Müəllim də bir insandır, onun da ailəsində problemlər ola bilər və ya özünün problemləri ola bilər. Sadəcə, bizim ənənəvi müəllim anlayışımız var idi ki-məsələn, müəllim çörək yemir-indi daha o dönəm deyil. Biz informasiya əsrində yaşayırıq. Bu gün valideynlə məktəb arasında əlaqədə əvvəlki illərlə müqayisədə çox azalıb. Bu gün dövlət məktəbləri ilə paralel olaraq özəl məktəblər var. Burada həm də kapitalizmi də nəzərə almalıyıq. Dərs ili yeni açılıb. Yayılan informasiyaların çox isə reallığı əks etdirmir. Məsələn şagirdin iki aldığına görə özünü ikinci mərtəbədən atması. Bu uşaq sadəcə yıxılıb və sadəcə ayağı burxulub. Ancaq mətbuat bunu uşağın intihar etməsi kimi qələmə verdi. Dünənə qədər də müəllimlər arasında dava-dalaş olub. Ancaq bunların heç biri mətbuata ötürülməyib. Bəzən bu cür informasiyalar məqsədli şəkildə mətbuata ötürülür".

**Psixoloq dedi ki, məktəblərdə psixoloq var:** "Bu psixoloqa səlahiyyət verilsin, onlar çətin tərbiyə olunan uşaqlarla işləsinlər. Bu gün Təhsil Nazirliyinin nəzdində "Məktəblinin dostu" adlı 30 məktəbi əhatə edən sahə yarandı. Uşaq dərsə gəlməyəndə ailəsi ilə əlaqə saxlanacaq. Elə uşaqlar var ki, onlar valideyni aldadır, dərs adı ilə gedib oyun zallarında otururlar. Bu gün bu islahatlar aparılır. Sadəcə olaraq cəmiyyətdə müəllimə qarşı bir inamsızlıq, etibarsızlıq yaranır. Biz bunun fəsadlarını görəcəyik. Psixoloji problemlər də var. Məktəblə valideyn arasında əlaqə, güvən, inam olmalıdır. Bu olmayanda nəyisə düzəltmək haqda danışmaq çətindir. Tutaq ki, hansısa rayonda qadın üstündə məktəb direktoru ilə müəllim davaya çıxdı. Bu söhbət deyil axı... Yəni bunu mətbuata çıxarmaq düzgün deyil. Məsələn, o iki qiymət aldığına görə guya pəncərədən özünü atan şagirdlə bağlı... İndi çoxlarını inandırmaq olmur ki, o uşaq intihar etməyib. Zərbə kimə dəydi? Məktəbə, valideynə, şagirdə... Valideyn deyir ki, biz uşağımızın adının hallanmasını istəmirik. Sabah o uşağı pəncərədən özünü atan kimi barmaqla göstərəcəklər ki, bu da onun üçün travmadır. 5 nəfər xəbər oxuyacaq deyə müəllimi də, valideyni də ayaq altına qoyuruq. Bu olmaz. Buradan valideyn şagird əziyyət çəkir. Bunlar nəzərə alınmalıdır..."

❑ Günel MANAFLI

# Neftçilərə mobil telefon qadağası

## Mirvari Qəhrəmanlı: "İşçilər stasionar telefonla təmin olunub"

**Azərbaycanda hərbi-strateji məkanlarda, hətta Milli Məclisdə mobil telefonlardan istifadə qadağan edilir. Bu qadağa xüsusilə ağıllı telefonlara şamil olunur. Bir müddət əvvəl isə neftçilərə belə bir qadağa qoyulub.**

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **Neftçilərin Hüquqlarının Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı** bildirib ki, artıq neftçilərin telefon problemi demək olar ki, çözülüb:

"Neftçilərə mobil telefon qadağası ilə bağlı xəbəri aldıqdan sonra buna etiraz etdim. Bununla bağlı müvafiq müraciətlərimi də lazımı şəxslərə ünvanladım. Məndə olan məlumata görə, platformaların hamısında stasionar telefonlar qoyulub. Həmin telefonlar vasitəsi ilə mobil telefonları, rayonları da yığmaq mümkündür. Yəni bu baxımdan demək olar ki, neftçilərin telefon problemi həll olunub. "İyulda "Azneft" İstehsalat Birliyinin rəhbəri Daşqın İsgəndərov yazılı sərəncam verib ki, təhlükəsizlik, yanğından mühafizə məqsədilə dəniz platformalarına telefon aparılması qadağandır. Bununla əlaqədar mən SOCAR-ın vitse-prezidenti Bədəl Bədəlova məktub göndərdim. Eyni zamanda "Azneft" İstehsalat Birliyinin rəhbərliyi ilə də tədbirlərin birində görüşdüm və fikrimi bildirdim. İş zamanı mobil telefon qadağası ilə razıyam. Ancaq platformaya gedən insanlar 15 gün ailələrindən təcrid olunurlar. Onların telefon götürməsi anlayışla qarşılanmalıdır. Eyni zamanda hələ ki, "28 may" NQÇİ-ə telefon buraxırlar. Platformalara isə



mobil telefonlar buraxılmır. İş yerində mobil telefon işlədilməsi çox təhlükəlidir. Bu xarici şirkətlərdə də belədir və icazə verilmir. Bizim təklifimiz ondan ibarət idi ki, platformada məişət binası var. Həmin binalar yanğına və digər bu kimi hadisələrə də dözümlüdür. Biz təklif etmişdik ki, orada işçilərin mobil telefon işlətmələrinə icazə versinlər. Cavab verdilər ki, biz işçiləri sahəyə gedəndə yoxlamırıq. Onlar da qaydanı pozub telefon götürürlər. Yəni mənim dediyim etirazları onlar bu cür yerinə yetirdilər ki, işçiləri stasionar telefonla təmin etdilər".

❑ Əli RAİS

# Deputat Mirzəcan Xəlilov barəsində şok məlumatlar

## Milli Məclis üzvü olan ASC rəhbəri imarətlərində işlətdiyi ustaların və fəhlələrin pulunu kəsməklə ad çıxarıb; o, 55 min manat borclu olduğu iş icraçısını ölümlə hədələyir

**41 saylı Sumqayıt birinci seçki dairəsindən Milli Məclisin deputatı, "Azərsutəchizattikinti" ASC-nin sədri Mirzəcan Xəlilov villasında işlətdiyi ustaların pulunu vermir. Bu azmış kimi ustalara briqadirlik etmiş Laçın rayonundan məcburi köçkün Zülfüqar Əliyevi yox etməklə hədələyir. Bu barədə oktyabrın 3-də "Yeni Müsavat"ın redaksiyasına gələn Zülfüqar Əliyev məlumat verib. Başına gələnləri əməkdaşımıza danışan və ictimailəşməsini istəyən üç uşaq atası Zülfüqar Əliyev bildirdi ki, 2013-cü ildə Mirzəcan Xəlilovla Novxanıdakı villasının fasadının təbii daş örtüyü ilə üzlənməsi üçün aralarında anlaşma olub. Materialların alınması, daşınması xərcləri və işçilərin zəhmət haqqı ümumilikdə 185 min manat dəyərləndirilib. Zülfüqar Əliyev və briqadiri olduğu 20 nəfərlik usta-fəhlə heyəti işə başlayıb. 2014-cü ilin may ayına qədər işlərin 90 faizə yaxını görülüb. 2014-cü ilin may ayından isə Mirzəcan Xəlilovla Zülfüqar Əliyev arasında problemlər meydana gəlib.**


Mirzəcan Xəlilov

**Zülfüqar Əliyev münaqişənin yaranmasının səbəblərini belə izah etdi:** "Materialların qiymətləri getdikcə bahalaşdığı və ortaya görüləsi əlavə işlər çıxdığından bəlli oldu ki, 185 min manata işi sona çatdırmağa bəs etməyəcək. Hesabladıq ki, 55 min manat da materiallar və işçilərin zəhmət haqqı üçün lazımdır. Villa elə-belə villa deyil, qiyməti bir neçə milyon olan böyük saraydır. Təkcə fasadının daşla üzlənməsinə bu qədər vəsaitin sərf olunduğu villanın necə olduğunu hər halda təsəvvür edirsiniz. Biz hesablayıb artımı Mirzəcan müəllimə deyəndə, çox sərt reaksiya verdi və bildirdi ki, bir manat da verməyəcək. Mirzəcan müəllim əvvəldən razılaşdığımız məbləği də tam olaraq ödəmədi. Əvvəldən razılaşdığımız 185 min manatın 25 min manatını vermədi. Biz də məcbur olduq işi dayandırdıq. Həm materialları aldığım adamlara, həm də usta və fəhlələrə borclu qaldım. Məcbur olub cibimdən, ordan-burdan borc alıb ustaların pulunu verməli oldum. İndi özüm qalmışam borclu. Üzlük daş və digər materiallar aldığımız bir neçə sexə də borc hələ qalır. Mirzəcan Xəlilovun villası üçün aldığım materialların pulunu vermir ki, aparıb ödəyim. Onun mənə ümumilikdə 55 min manat borcu var. Hələ də ödəməkdən imtina edir".

**Zülfüqar Əliyevin sözlərinə görə, Mirzəcan Xəlilovdan pulu tələb edəndə onu hədələyib:** "Mənə dedi ki, 150 min manat xərc çəkib səni tutduracağam, başına oyun gətirdəcəyəm. Mən bundan sonra onun yanına üç dəfə ağsaqqal göndərdim ki, məsələ dinc yolla həllini tapsın. Ağsaqqal birinci dəfə gedəndə Mirzəcan Xəlilov demişdi ki, üzlük daşları aldıqları sexin pulunu verərəm. İkinci dəfə gedəndə isə bildirmişdi ki, Zülfüqar sexin pulunu cibindən verməyəydi, mən Zülfüqara pul verəsi deyiləm. Üçüncü dəfə isə demişdi ki, bir də qapıma bu məsələ ilə bağlı kim gəlsə, tutduracağam.

Bundan bir sıra yüksək dövlət orqanlarına rəsmi ərizə ilə müraciət etdim. Mirzəcan Xəlilov vəzifəsindən və maddi imkanından istifadə edir, hara ərizə yazıramsa baxılmasına mane olur. Mirzəcan Xəlilov borcunu ödəmək əvəzinə məni həbs etdirmək üçün 5 may 2016-cı ildə məhkəməyə də şikayət edib. Mən prezidentə şikayət ünvanlamışdım. Mirzəcan Xəlilov bundan qəzəblənib, Abşeron Rayon Məhkəməsinə həbs olunmağım tələbi ilə şikayət verib. Guya onun şərəf və ləyaqətini təhqir eləmişəm. Şikayətində məni ondan 35 min manat alıb işi yarımçıq qoyub qaçmaqda şərləyirdi və həbsimi tələb edirdi. Məhkəmə oldu və mən ondan iş üçün 160 min manat aldığımı və son qəpiyinə qədər işə xərcləndiyini sübuta yetirdim. Bildirdim ki, Mirzəcan müəllim mən işi dayandırdıqdan sonra işləyən ustaya 15 min manat veribsə, bu, mənlik deyil. Məhkəmə günahkar olmadığımdan xüsusi ittiham qaydasında şikayət üzrə icraata iyunun 29-da xitam verdi. Bundan sonra Mirzəcan Xəlilov Ağdam Rayon Məhkəməsinə şikayət verib. Bu dəfə də mənə qarşı eyni şərləmələr iddiada əksini tapır və bu dəfə həbsimi yox, 100 min manat təzminat ödəməyim barədə qərar çıxarılmasını istəyir. Hazırda iş Ağdam məhkəməsindədir. Əslində Mirzəcan Xəlilovun məqsədi odur ki, məni qorxutsun və ondan borcunu ödəməsini tələb etməyim.

Mən burdan Azərbaycanın baş prokuroruna, daxili işlər nazirinə müraciət edirəm ki, cibində deputat mandatı daşıyan Mirzəcan Xəlilovun mənə olan borcunu ödəməsi, məni hədələməkdən əl çəkməsi üçün qanun çərçivəsində tədbirlər görülsün. Mirzəcan Xəlilov deputat olduğunu və heç kimdən, heç nədən qorxmadığını deyir, məni yox elətdirməklə hədələyib. Həyatıma təhlükə var. Xahiş edirəm, təhlükəsizliyimi təmin edin".

"Yeni Müsavat" Mirzəcan Xəlilovla bağlı kiçik bir araşdırma aparıb. Nəticədə ortaya ilginc faktlar çıxıb.

1954-cü ildə Sabirabad rayonunun Kovlar kəndində anadan olan Mirzəcan Xəlilov 2005-ci ildə 63 saylı Sabirabad I Seçki Dairəsindən deputatlığa namizəd olub. Hakim Yeni Azərbaycan Partiyasının siyahısı ilə deputat olmaq istəyən M.Xəlilov seçkidə məğlub olub. 2006-cı ildə təkrar seçkidə 44 saylı Sumqayıt Seçki Dairəsindən namizəd olsa da, bu dəfə də deputat mandatı qazana bilməyib. Hakimiyyətin yuxarı qatlarında nədənsə bu şəxsə qarşı bir inamsızlıq hiss edilib. Onun 2010-cu il parlament seçkilərində də 65 saylı Sabirabad dairəsindən də mandat almaq ümidləri doğrulmayıb. YAP-ın namizədlər siyahısına adı daxil edilməyib.

2015-ci il parlament seçkilərində də M.Xəlilovun adı hakim partiyanın namizədləri siyahısına daxil edilməyib. M.Xəlilov YAP-ın üzvü olsa da fərdi qaydada namizədliyini 41 saylı Sumqayıt Seçki Dairəsindən irəli sürüb. Baxmayaraq ki, YAP-ın siyahıdan kənarda fərdi qaydada namizədliyini irəli sürən YAP üzvlərinə qadağası elan edilmişdi. Nədənsə bu qadağanı pozan Xəlilov partiyadan çıxarılmadı. Əksinə, 41 saylı Sumqayıt seçki dairəsindən YAP-ın vahid namizədi, həmin dairənin deputatı Leyla Abdullayeva seçkilərdən qəfil geri çəkildi. M.Xəlilov deputat mandatına məhz bundan sonra sahib ola bilib.

M.Xəlilovun dəyəri milyonlarla ölçülən mülklərə sahiblənməsi isə deputatlıqdan xeyli əvvəllərə gedib çıxır. "Azərsu" ASC-nin ən böyük layihələrində bir qayda olaraq nə sirdirsə məhz M.Xəlilovun rəhbərlik etdiyi "Azərsutəchizattikinti" ASC tenderlərin qalibi elan olunur. Son 6 ildə bu ASC milyonlarla manatlıq tenderlərin "qalibi" olub.

İlkin araşdırma nəticəsində o da məlum olub ki, M.Xəlilov təkcə villasının fasadında işləyənlərin deyil, villanın içində işləmiş ustanın da pulunu kəsibmiş. Araşdırmamız zamanı bir il öncə - 2015-ci il oktyabrın 8-də bir neçə internet portalında bu barədə vətəndaş şikayətlərinin yazıldığı ortaya çıxdı. Məsələn, bəlli olub ki, vətəndaş Mikayılov Zaur Əjdər oğlu 2015-ci ilin iyul-avqust aylarında M.Xəlilovun Novxanıdakı nəhəng şəxsi imarətinin sauna hissəsinə jalüzlərin qurulması işini görüb, dizayner xidməti göstərib. Prosesin gedişində işlərin həcmi artıb Z.Mikayılov 3950 manata kəsdikləri əvvəlki qiymətin müvafiq olaraq 4900 manata çıxacağını M.Xəlilovun adamlarına bildirdiyində ona işinə davam etməyini tövsiyə ediblər və pulun qalanının da ödəniləcəyinə əmin ediblər. Lakin iş başa çatandan sonra M.Xəlilov ilkin razılaşma çərçivəsindən kənara çıxan 1000 manata yaxın pulu ödəməkdən imtina edib. O, hətta zəhmətinin haqqını tələb edən ustanı kobud sözlərlə təhqir edərək, villasından qovub.

**Zülfüqar Əliyevin dediklər ilə bağlı Mirzəcan Xəlilovun fikirlərini dərc etməyimiz üçün köməkçisinin bizdə olan telefon nömrəsinə dəfələrlə zəng etsək də cavab verən olmadı. Deputatın mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.SEYİDAĞA**



# Rayonların torpaq iddiasını həll etmək üçün parlamentdə işçi qrupu yaradıldı

## Ölkənin 59 ərazi vahidində torpaqların hansı rayonlara aid olması ilə bağlı mübahisələr müzakirəyə çıxarıldı

**"Ölkənin 59 ərazi vahidində torpaqların hansı rayonlara aid olması ilə bağlı müəyyən mübahisələr yaranıb". Bunu Milli Məclisin Regional məsələlər komitəsinin 4 oktyabrda keçirilən iclasında komitə sədri Arif Rəhimzadə deyib.**

Deputat bildirib ki, qəsdən, yaxud bilməyərəkdən bu rayonlar biri digərinin torpaq sərhədlərini pozaraq aralarında ərazi mübahisələrinə səbəb olub. "Çox zaman görürük ki, rayon rəhbərləri mübahisəli torpaqlara görə birbaşa olaraq öz aralarında ciddi problemlər yaradırlar. Bu da çox xoşagəlməz haldır". Modern.az-ın xəbərinə görə, bunu isə deputat Tahir Rzayev deyib. O bildirib ki, torpaqların hansı rayona az yaxud çox düşməsinə görə ciddi mübahisələr yaratmaq yolverilməzdir: "Fərqi nədir ki, torpaqdır da... 50 hektar bir rayona az düşər, birinə çox düşər. İki rayonun da əhalisi azərbaycanlıdır. Həmin torpaqlar hamısı Azərbaycana məxsusdur, onlar hamısı Azərbaycanın rayonlarıdır. Məsələni həll edərkən elə etməliyik ki, nəyisə düzəltmək istəyərkən əlavə ciddi problemlər yaranmasın". Komitə üzvü deyib ki, bu məsələnin müzakirəsini əhalinin özünə həvalə etmək düzgün olmaz: "Mübahisəli torpaqların həlli məsələsini əhalinin müzakirəsinə versək, ortaq məxrəcə gəlmək çox çətin olacaq. İnsanların bir hissəsi rayonların ərazisində məcburi köçkün olaraq məskunlaşıb. Bunu da nəzərə almalıyıq".

"Heç bir torpaq mübahisəsi iki tərəfdən qırağa çıxmamalıdır. Mübahisəni üçüncü tərəfə, kənara çıxarmaq, genişləndirmək yolverilməzdir. Komitə üzvü kimi xahiş edirəm ki, bu kimi hallarda kənaraçıxmalara yol verilməsin". Bu fikirləri isə komitə sədrinin müavini, deputat Fəttah Heydərov deyib. O bildirib ki, torpaq mübahisələrini yerində həll etmək lazımdır: "Mübahisə uzun zaman davam edəndə şişir və başqa arzu olunmaz hallara gətirib çıxarır. Ona görə də torpaq mübahislərini yerində həll etmək lazımdır ki, ədalətli, haqlı və qanuna uyğun şəkildə öz həllini tapmış olsun. Belə məsələlər hər zaman səbirlə, təmkinlə, haqq və ədalətlə həll olunmalıdır".

Müzakirələrin yekununda ölkədə mövcud olan mübahisəli torpaq məsələlərinin həll edilməsi məqsədi ilə Milli Məclisin Regional məsələlər komitəsində 3 işçi qrup yaradılıb.

**Komitə sədri Arif Rəhimzadə** deyib ki, regionlarda mövcud olan mübahisəli torpaq məsələlərini, rayonların sərhədlərinin dəqiqləşdirilməsi məqsədi ilə yaradılmış işçi qruplara bir sıra dövlət orqanlarının rəsmiləri də salınıb. Belə ki, işçi qruplarda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin, Milli Məclis Aparatının bir sıra əməkdaşlarının adları var. Hacıqabul və Xaçmaz rayonlarındakı mübahisəli torpaqların araşdırılması deputat Tahir Rzayevin başçılıq etdiyi qrupa həvalə olunub. Binəqədi və Sabunçu rayonuna ayrılmış 2-ci işçi qrupunda deputat Rüstəm Xəlilov rəhbərlik edəcək. İmişli və Ağcabədi rayonlarında mövcud olan mübahisəli torpaqla görə yaradılmış 3-cü işçi qrupunun rəhbəri isə deputat Malik Həsənov olub.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016

**"Roma Papası Fransiskin Dağlıq Qarabağla bağlı mövqeyi demək olar ki, tam surətdə erməni lobbisinin fikirləri ilə üst-üstə düşür. Düşünürəm ki, Roma Papasının mövqeyi başqa cür ola da bilməzdi". Politoloq Arzu Nağıyev Roma Papasının Bakıda keçirdiyi görüşlərdə və etdiyi çıxışlarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməklə bağlı hər hansı mövqe ortaya qoymamasını şərh edərkən bildirdi.**

# Papa ərazi bütövlüyü məsələsində niyə ayrı-seçkilik etdi?

**Politoloq:** "Gürcüstanda ərazi bütövlüyü ilə bağlı səsləndirdiyi fikirlər dini həmrəylikdən irəli gələn amildir"




Qeyd edək ki, yay aylarında Ermənistanda olarkən qondarma "erməni soyqırımı"ndan bəhs edən, işğal altındakı Qarabağ ərazilərini "bir parça torpaq" adlandıran Papa Bakıdan əvvəl Tiflisdə olarkən də qonşu dövlətin ərazi bütövlüyünü dəstəklədiyini açıq şəkildə nümayiş etdirmişdi. Onun "Gürcüstanda demək olar ki, 500 min insan öz ölkəsində qaçqınlıq həyatı yaşayır. Tsxinvali və Abxaziya Gürcüstanın qədim torpağıdır" sözləri ümid verirdi ki, analoji mövqe Qarabağla bağlı da sərgilənəcək. Lakin Azərbaycanda kifayət qədər yüksək səviyyədə, saygı ilə qarşılanmasına baxmayaraq, Vatikan liderinin dilindən "Qarabağ qədim Azərbaycan ərazisidir" mövqeyini eşidə bilmədik.

**A.Nağıyev hesab edir ki, bu, əsassız deyil:** "Çünki Fransisk əslən Argentinadandır, bu ölkədə də erməni lobbisi həddən artıq güclüdür. Təbii ki, burada din amili də var. Yəni katolik kilsəsinin nümayəndəsi tam şəkildə bu məsələdə Azərbaycanı dəstəkləyə bilməz. Bundan başqa, bir müddət əvvəl Roma Papası saxta "soyqırım"ı tanıması haqqında da bəyanat verdi və bütün Avropanı buna səslədi. Gürcüstanda ərazi bütövlüyü ilə bağlı səsləndirdiyi fikirlər də bu dini həmrəylikdən irəli gələn amil idi. Təbii ki, səbəblərdən biri də Rusiyanın işğalçılıq siyasətini bir daha göstərməkdir. Vatikanın dünyada gedən siyasi və iqtisadi, hətta hərbi məsələlərin də təsir mexanizmi güclüdür. Buna görə də Papanın hər hansı problemə münasibət bildirməyi də vacib amildir, lakin heç də həmişə bu, öz həllini tapmır. Çünki Vatikanın da öz problemləri var və dünya bunu dərk edir".

**Ancaq A.Nağıyev əlavə etdi ki, bu gün Azərbaycan dövlətinin Vatikanla əlaqələrinin belə səviyyədə olmasının özü də müsbət bir göstəricidir:** "Papanın da qeyd etdiyi kimi, 600-700 nəfər üçün səfər deyil, məhz 90 faizdən çox müsəlman inanclı dövlətə səfər etmək bu dövlətin nüfuzu deməkdir. Eyni zamanda bu Vatikana edilən köməkliklə bağlı bir təşəkkür mesajıdır. Düşünürəm ki, Azərbaycanda şəxsən gördüyü bu mühit, tolerantlıq və multikultural dəyərlərə yanaşma Roma Papasının yanaşmalarında, hətta Qarabağ münaqişəsinin həllində mühüm addım olacaq. Digər tərəfdən, cənab Fransiskin fikri hələ dünya katoliklərinin fikri demək deyil. Bir daha qeyd etmək istərdim ki, Vatikan bu səfərlərdən sonra öz yanaşmalarında korrektələr etməyə məcburdur".

"Roma Papası Fransisk Bakıda işğalçı Ermənistanla bağlı mövqeyini bildirməli idi". Bu fikri isə **politoloq Qabil Hüseynli** Gununsesi.info-ya açıqlamasında bildirib. Səfərə böyük önəm verən politoloq deyib ki, bu ziyarət bir daha ölkəmizin beynəlxalq aləmdə artan rolundan xəbər verir. "Bundan başqa Roma Papasının Azərbaycana səfərini ölkədəki multikultural münasibətlərin və dini tolerantlılığın yüksək səviyyədə olduğunun göstəricisi hesab etmək olar və dünya ictimaiyyətində bu barədə fikirlər formalaşdırır",- deyə politoloq vurğulayıb.

**Bununla belə, Q.Hüseynli təsdiqləyib ki, Roma Papasının Ermənistanla Azərbaycan arasındakı münaqişəyə obyektiv yanaşmaması təəssüfləndirici haldır.** "Çünki Roma Papası Ermənistan-Azərbaycan münaqişəsinə obyektiv münasibət bəsləmir. Bu isə onu göstərir ki, o, bölgədə Ermənistanı üstün tutur. Roma Papasının bölgədəki münaqişələrə belə bir mövqe sərgiləməsi regionda sülhün yaranmasına tam xidmət edə bilməz"- Hüseynli qeyd edib.

Politoloq onu da əlavə edib ki, Roma Papasının Ermənistanda uydurma "erməni soyqırımı" abidəsi önündə əklil qoyması, onlar haqqında yüksək fikirlər səsəndirməsi yerində işlədilməyən ifadələrdir: "Əksinə, Roma Papası qətiyyətli formada Ermənistanın işğalçılıq siyasətini pisləməli və sülhə çağırışlarla bağlı ciddi bəyanatlar verməli idi. Amma bu çağırışlar olmadı. Ermənistanla bağlı səslənən ifadələr də çox yumşaq oldu. Bu, sərt və konkret formada olmalı idi".

**Q.Hüseyni sual edir:** "Necə olur Roma Papası Ermənistanda uydurma soyqırımından danışıq və onu dətsəkləyir, ancaq müasir dövrümüzdə baş verən Xocalı soyqırımından söz açmır, 20 faiz Azərbaycan torpaqları işğal olunur, bu ərazilərdə bütün tarixi, maddi-mənəvi, mədəniyyət abidələri məhv edilir, o barədə bir kəlmə də olsun, ifadə işlətmir, bu hadisələri pisləyən mövqe sərgiləmir. Düzdür, bunlar ürəkaçan mövqe olmasa da, Roma Papasının bölgəyə səfəri sülhyaratma prosesinə müəyyən töhfələr verə bilər".

**Bəs Papanın ərazi bütövlüyümüzlə bağlı ortaya mövqe qoymamasına rəsmi Bakının münasibəti necədir? Təəssüf ki, XİN-dən bu barədə münasibət öyrənmək mümkün olmadı.**

❑ C.TURAN

# Serj Sərskisyana qarşı müxalifət güclənir

## Qarabağ münaqişəsinin baş ideoloqunun erməni prezidentə mesajının pərdəarxası

**Bu günlərdə Ermənistanın yeni baş naziri Karen Karapetyanın dəvəti ilə Rusiya Elmlər Akademiyasının akademiki Abel Aqanbekyan Ermənistan paytaxtında peyda olub.**

Tanınmış iqtisadçı-alim, Rusiya hökuməti yanında Xalq Təsərrüfatı Akademiyasının rektoru, yenidənqurma illərində Sov.İKP MK baş katibi M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi olmuş Aqanbekyan Qarabağ münaqişəsinin əsas ideoloqlarındandır. Məhz bu separatçı-akademikin "iqtisadi problemlər yaşayan Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir" fikri sonrakı proseslərdə "barıt çəlləyi" rolunu oynadı.

Məlumata görə, səfəri çərçivəsində Aqanbekyan Ermənistan prezidenti Serj Sarkisyanla da görüşüb. Jurnalistlərlə söhbətində Aqanbekyan Sarkisyan hakimiyyəti və ölkənin indiki vəziyyəti ilə bağlı heç bir nikbin fikir söyləməyib. "Serj baş nazir olduğu dövrdə Ermənistan iqtisadiyyatının vəziyyəti kritik idi və o məndən soruşmuşdu: "Nə etməli?" Mən ona bildirmişdim ki, ilk növbədə bir sadə problemi həll etmək lazımdır. Ermənistanda vəziyyətdən baş çıxara biləcək yüksək səviyyəli peşəkarların olmadığını nəzərə alaraq, bütün dünyadan, Rusiyadan, Avropadan, ABŞ-dan 10-11 ən yaxşı mütəxəssisi dəvət etməli və ən problemli sahələri onların ixtiyarına verməlidir. Mən ona dedim: "Siz ən yaxşı insanları tapmalı, onlar üçün bütün şəraiti yaratmalısınız, onlar isə əvəzinizə hər şeyi edəcəklər".

A.Aqanbekyan deyib ki, bu söhbət 2008-ci ildə olub. "Bəs indiki vəziyyətdə siz ona nəyi məsləhət görərdiniz" sualına cavabında isə o, "Getməyi. O göstərdi ki, heç nə edə bilmir" - deyərək erməni prezidenti şoka salacaq açıqlama verib. Aqanbekyanın mesajlarının arxasında nələrin dayandığı barədə təbii olaraq ortaya suallar çıxır.

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bu barədə



açıqlamasında əvvəlcə Ermənistanın yeni hökumətinin davranışlarına diqqət çəkdi: "Hiss olunur ki, Ermənistanın yeni baş naziri Karen Karapetyan nəsə yenilik etmək və Ermənistanı ağır iqtisadi böhrandan qurtarmaq istəyir. Ancaq istək azdır. Karapetyan istəyini reallaşdırmaq üçün 3 ciddi maneəni aşmalıdır: birinci maneə idarəetmədəki korrupsiyadır. Bu maneəni aşmaq üçün az qala bütün idarətmə sistemi yenidən qurmalıdır. Ancaq çətin ki, prezident Sərkisyan Karapetyana belə bir imkan tanısın. İkinci maneə iqtisadiyyatdakı monopoliyalardır. Karapeytan heç bir monopoliya ilə bağlı deyil. O, baş nazir vəzifəsinə Rusiyadan gətizdirilib. Ona görə də məntiqlə Karapetyanın Ermənistandakı monopoliyalarla mübarizə aparması mümkündür. Ancaq o yenə qarşısında Sərkiysanı görəcək. Çünki Ermənistanda monopoliyalar onun və keçmiş prezident Robert Köçəryanın dövründə kök salıb və onlar bundan imtina etmək istəmirlər. Üçüncü maneə Ermənistanda maliyyə və insan resurslarının tükənməsidir. Bu digər iki maneədən ən mürəkkəbidir. Kaparetyan "islahat aparacağam" desə də, bu işi görmək üçün onun nə kifayət qədər maliyyəsi, nə də insani resursu var. Ona görə də Karen Kapapetyan yerində sayacaq".

**E.Şahinoğlu qeyd etdi ki, Karen Karapetyanın SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə keçmiş köməkçisi Abel Aqanbekyanı kömək üçün İrəvana çağırması da batan insanın saman çöpündən yapışmasına bənzəyir:** "Elə Aqanbekyan da İrəvanda jurnalistlərə Ermənistan iqtisadiyyatı barədə optimist fikir deməyib. Onun "Serj Sərkisyanla iqtisadiyyatı dirçəltmək mümkün olmayacaq" sözləri Ermənistanın hakim elitasına soyuq duşdur. "Sərkisyan heç nə bilmir" deyən Aqanbekyan Ermənistanın gələcəyi üçün yaxşı heç nə vəd etmir. Çünki Sərkisyan asanlıqla hakimiyyətdən gedəsi deyil. Sərkisyan konstitusiyanı da ona görə dəyişdi ki, ölkəsini parlamentdəki çoxluq vasitəsilə idarə edə bilsin. Buna baxmayaraq, Ermənistanın faciəsində Aqanbekyan Sərkisyan qədər günahkardır. Məhz bu şəxs hələ SSRİ-də yeni başlanan yenidənqurma dövründə "Dağlıq Qarabağ Ermənistana məxsus olmalıdır" fikrini söylədi. Bu Dağlıq Qarabağdakı erməni separatçıları üçün fitil rolunu oynadı. Ona görə də Aqanbekyan Sərkisyanı haqlı olaraq tənqid edərkən güzgüyə də baxmalıdır. Çünki onun məsləhəti ilə Sərkisyan və Köçəryan kimi separatçılar işğala baş vurmasaydılar, Ermənistan Azərbaycanla normal qonşuluq münasibətlərinə çalışsaydı, Ermənistan indiki qədər ağır vəziyyətə sürüklənməzdi. Dağıdıcı yolu seçdilər, bu da nəticəsi".

**E.Şahinoğlu xatırlatdı ki, bu arada, Azərbaycanın və Ermənistanın 2017-ci il üçün büdcələrini demək olar ki, eyni gündə açıqlaması da diqqətçəkicidir:** "Ermənistan büdcəsinin 2017-ci il üçün gəlir hissəsi 2.6 milyard dollar, xərcləri isə 2.9 milyard dollardır. Büdcə kəsiri 300 milyon dollardır. Ermənistanın gələn il üçün hərbi xərcləri 439 milyon dollar civarındadır. Bu Ermənistanın 2016-cı il hərbi büdcəsindən 3 milyon dollar çoxdur. Azərbaycanın 2017-ci il üçün hərbi xərcləri isə 994 milyon dollar civarındadır, bu keçənilki hərbi xərclərdən 440 milyon dollar azdır. Azərbaycanda hərbi xərclərin azalmasına baxmayaraq, yenə də Ermənistanın hərbi xərclərindən təxminən iki dəfə çoxdur. Ancaq vaxt var idi ki, Azərbaycanın hərbi büdcəsi Ermənistan büdcəsinin tamamından çox idi. Buna baxmayaraq, Azərbaycan işğalçı ilə müharibə aparmaq üçün yeni hərbi texnikanın alınmasına vəsaiti azaltmayacaq. Bu o deməkdir ki, baş nazir Karen Karapetyanı gələn il daha böyük çətinliklər gözləyir".

**Politoloq Hikmət Hacızadə** isə hesab edir ki, Aqanbekyanın İrəvana gəlişi sıradan bir məsələdir və arxasında hər hansı ciddi plan dayanmır: "Aqanbekyan tarixdə olmuş, amma sonradan sönmüş bir şəxsdir. O, indi heç kimdir. Təsadüfən İrəvana gəlib, fikirlərini soruşublar, o da deyib. Ancaq onun arxasında heç kəs durmur". H.Hacızadə Ermənistanda növbədənkənar prezident seçkilərini mümkün saymır: "Sərkisyan Moskvaya sadiq quldur, onu niyə dəyişdirsinlər ki?" Ekspert Qarabağ danışıqlarında da hər hansı dəyişiklik olacağını güman etmir.

❑ CAVİD

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016

# Gürcüstan iqtisadiyyatının inkişafının sirri

## Azərbaycan və Gürcüstanda adambaşına düşən büdcə xərcləri eynidir; iqtisadçı-ekspert gürcü iqtisadiyyatının irəli getməsinin səbəblərini açıqladı



**Son 10 ildə Gürcüstan iqtisadiyyatı nəzərəçarpacaq dərəcədə sürətlə inkişaf edir. Xüsusilə Mixail Saakaşvilinin 2004-cü ildən etibarən qonşu ölkəyə rəhbərlik etməsindən sonra iqtisadiyyat sıçrayış mərhələsinə qədəm qoyub. Onun 3 il öncə rəhbərlikdən getməsi də qoyduğu sistemin yaşamasına əngəl olmadı.**

2017-ci il proqnozuna görə, qonşu ölkə ilə Azərbaycanın adambaşına düşən büdcə xərcləri eynidir. Bu barədə iqtisadçı ekspert Rövşən Ağayev maraqlı açıqlama verib. O bildirib ki, indiyədək fikirləşirdim ki, hazırkı inkişaf tempi ilə Gürcüstanla Azərbaycan arasında iqtisadi fərqləri daha aşkar formada 2020-ci ildən sonra hiss etmək mümkün olacaq: "Amma proses çox sürətlidir: bu fərqləri artıq indidən qabarıq görməyə başladıq. 2017-ci il yanvarın 1-dən orta məktəbdə ən az maaş alan praktikant müəllimlərin məvacibi 257 USD, müəllimlərin maaşı 414 dollar, aparıcı müəllimlərin əmək haqqı 343 dollar olacaq. Bu hazırkı məzənnə ilə 420-670 Azərbaycan manatına bərabərdir. Azərbaycanda isə orta məktəb müəllimlərinin ən azı 70%-nin əmək haqqı 250 manatdan azdır. Orta maaş isə 300 manata çatmır".

**Ekspert başqa bir maraqlı məqamı da toxunub:** "2017-ci ilin proqnozuna görə, Azərbaycanda və Gürcüstanda adambaşına büdcə xərcləri eynidir: təxminən 1000 dollar. Halbuki 5-6 il öncə Azərbaycanda adambaşına büdcə xərcləri 2500 dollara çatırdı, Gürcüstanda isə 500 dollar ətrafında idi. Onların qatarı sürətlə irəli, bizimki isə geriyə gedir. Azad sahibkarlığın dayaq olduğu iqtisadiyyatın fərqi budur".

Əslən Gürcüstandan olan **iqtisadçı-ekspert Natiq Cəfərli** gürcü iqtisadiyyatının inkişaf səbəblərini belə izah etdi: "Gürcüstanda qanunun aliliyini, məhkəmə hakimiyyətinin müstəqilliyini, hüquq-mühafizə orqanlarının müəyyən çərçivə şəklində işləmələrini təmin edərək, ondan sonra iqtisadi islahatlara başladılar. Bu proses 2004-cü ildən başladı. Saakaşvilinin gəlişi inkişafa bir təkan verdi. Artıq 12 ilə yaxındır ki, Gürcüstan bu yolla gedir. Sivil dünya onu sübut edir ki, iqtisadiyyatda inkişaf üçün mütləq məhkəmənin müstəqilliyini, qanunun aliliyini, mülkiyyət toxunulmazlığını təmin etməlisən. Gürcüstanda bunlar təmin olunandan sonra ölkəyə investisiyalar gəldi, iqtisadiyyatın inkişafı üçün münbit şərait yarandı. Diqqət yetirsək görərik ki, Gürcüstan güclü olduğu sahələrdə ciddi irəliləyiş əldə edib. Məsələn, şərab və spirtli içkilərin ixracatından təqribən 500 milyon dollara yaxın gəlir götürür. Ölkənin xarici siyasətində bu bölümün rolu kifayət qədər yüksəkdir. Mineral sularda çox ciddi irəliləyiş var. Təqribən 270-280 milyon bu ixracatdan gəlir götürür. Çox böyük nəticədir. Kənd təsərrüfatında son illərdə 5 dəfəyə qədər artım müşahidə olunub. Bu da ölkəyə ciddi valyuta gətirir. Bunlardan əlavə, turizm Gürcüstanda əsas gəlir sahələrindən birinə çevrildi. Son məlumatlara görə, son illərdə təqribən 5.5 milyona yaxın turist ölkəyə gəlir. Günə 16 min turist düşür. Hər turistin xərcini 500 dollarla götürsək, milyardlarla gəlir əldə olunur. Bu sahəni Gürcüstan inkişaf etdirməyi bacardı. Bunun yolları əslində qalsa sadədir. Bunun üçün böyük biliyə və bacarığa sahib olmaq lazım deyil. Gürcüstan bu istiqamətdə nə etdi? İlkin olaraq vizaları ləğv etdi. 108 ölkədən turistlərin vizasız gəlməsinə icazə verdi. Bundan əlavə, ucuz uçuş üçün 12 şirkətin gürcü bazarına daxil olmasına şərait yaratdı. Gürcüstan Avropaya getmək 50-60 avro təşkil edən uçuşlar təşkil etdi. Azərbaycan, Ermənistan bu dəqiqə Gürcüstan üzərindən Avropaya daha çox gedirlər. Bunun nəticəsində iqtisadiyyatın inkişafının təməli qoyuldu. Problemlər yenə də var. Bunun tamamilə aradan qalxması mümkün də deyil. Böyük investisiyaların Gürcüstana gəlməsi üçün hökumət böyük işlər aparır. Yaxınlarda Çinlə böyük layihələrə imza atıldı. Yaxın 5 ildə təkcə Çin tərəfindən Gürcüstana 5 milyarda yaxın investisiya qoyulacaq. Bundan əlavə, Amerikanın regionda ən çox real sektora investisiya qoyduğu ölkə Gürcüstandır. Son 10 ildə 4 milyard investisiya ABŞ tərəfindən qoyulub. Gürcüstan investisiya cəlb edən ölkələr sırasında ilk 20-likdədir. Postsovet məkanında bu sahədə birinci yerdədir. Bunun nəticəsində çoxşaxəli inkişaf mərhələsinə qədəm qoydu. Bu yolla da inkişafa doğru gedir. Təsəvvür edin ki, dünyanın istənilən yerindən internet üzərindən Gürcüstanda şirkət qeydiyyatdan keçirmək mümkündür. Yəni orada olmadan da bunu həyata keçirmək olar. "Qızılgül inqilabı" bu günkü Gürcüstanın inkişafının əsasını qoydu".

**İqtisadçı-ekspert Azərbaycanın hələ də regionda lider ölkə olduğunu bildirdi:** "Təəssüflər olsun ki, getdikcə belə mənzərə yaranır. Amma əhalinin sayına və ümumdaxili məhsula görə Azərbaycan hələ də regionun lider ölkəsi olaraq qalır. İqtisadi göstəricilərimiz dayanıqlı deyil. Buna görə mövqelərimizi getdikcə itiririk. Bu ilin ilk 8 ayında Azərbaycanda ümumdaxili məhsulda 3.5-4% azalma müşahidə olunur, amma Gürcüstanda 3% artım var. Yəni gürcü iqtisadiyyatı artan xətlə gedir, amma Azərbaycan iqtisadiyyatı getdikcə kiçilir. Üzümüzə gələn bir neçə ildə Gürcüstanın Azərbaycandan daha çox ümumdaxili məhsul istehsal etməyə, orta aylıq əmək haqqında, təqaüdlərin həcmində bu gedişlə Azərbaycanı qabaqlayacaq. Ən azından Azərbaycan velosiped kəşf etmədən, Gürcüstan modelinə bənzər bir tranzit modeli hazırlamalıdır".

❑ **Cavanşir ABBASLI**

# İnternet televiziyalarına yasaq mümkün ola bilərmi?

## **Arif Əliyev:** "Elə hesab etməyin ki, Azərbaycanda bu sahəyə nəzarət yoxdur"



**Milli Məclisin payız sessiyasının birinci iclasında "internet və sosial medianı bağlamaq" çağırışları səslənib. Çağırışı edən isə deputat Məlahət İbrahimqızı olub. O, internet mediasını məzmununa görə tənqid edib, Milli Məclisin payız sessiyasının gündəliyinə internet üzərindən yayımlanan televiziyaların tənzimlənməsi ilə bağlı qanun layihəsinin salınması təklifini irəli sürüb. Lakin deputatın internet mediasının tənzimlənməsi ilə bağlı təşəbbüsünün sessiyada müzakirəsi dəstəklənməyib.**

*Maraqlıdır, ölkəmizdə internet televiziyaların fəaliyyətini tənzimləyən, ona nəzarət edən mexanizm varmı?*

Qeyd edək ki, Azərbaycanda hazırda 20-yə yaxın peyk və internet televiziyaları fəaliyyət göstərir ki, onlardan "ANN TV", "APA TV", "Muz TV" və digərlərini misal göstərmək olar. 2008-ci ildə yaranan "Kanal 13 TV" isə ilk internet televiziyası kimi tarixə düşüb. Hər il internet və peyk üzərindən yayımlanan bu cür televiziyaların sayı artmaqdadır.

Nəzərə çatdıraq ki, Rusiyada, qardaş Türkiyədə, Avropada, bir sözlə dünyanın heç bir ölkəsində internet televiziyaları və radiolarına sosial şəbəkələrdə olduğu kimi heç bir nəzarət yoxdur və onların fəaliyyəti üçün heç nə tələb olunmur.

*"İnternet televiziyaları və radioları demək olar ki, nizamlamaq istəsək belə, bunun mexanizmi çox çətindir və mümkün deyil".* Bu sözləri bir neçə il bundan əvvəl **Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmli** mətbuata açıqlamasında bildirmişdi. Qurum sədri vurğulamışdı ki, ölkəmizdə də bu sahəyə nəzarət yoxdur və Azərbaycan Avropa Şurasına üzv ölkə olduğundan internet televiziyalarının tənzimlənməsi qurumun qərarı ilə eyni olur:

*"Avropa Şurası ölkələrində əgər bu sahə tənzimlənəcəksə, biz də tənzimləyəcəyik, tənzimlənməsə, biz də tənzimləməyəcəyik". Bəs, görəsən hazırda vəziyyət necədir, internet televiziyalarına nəzarət, onlara yasaq mümkün ola bilərmi?*

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev** sualımıza bu cür aydınlıq gətirdi:

"Hələ 2015-ci ildən bu cür təkliflər səslənir. Əsasən də parlament tribunasından ki, "Azərbaycanda interneti və internet medianı lisenziyalaşdırmaq lazımdır" və sairə. Amma hələlik həmişə rəsmi dövlət orqanları, Prezident Administrasiyası belə bir plan olmadığını bəyan edir. Amma prinsipcə şahidi olmuşuq ki, dəfələrlə təkrar olunan təkliflər sonradan gerçəkləşmək qabiliyyətinə malikdir. Amma internetin televiziyalara xüsusi lisenziya tətbiq etmək, tənzimləmək üçün heç bir ehtiyac yoxdur. Çünki internet televiziyaları yayımlarını həyat keçirmək üçün heç bir strateji resuslardan istifadə etmir. Çoxları dərk edə bilmir ki, bizdə efir televiziyaları jurnalist fəaliyyətinə və yaxud hazırladığı proqrama görə lisenziya götürmür, onlar efir tezliyindən istifadə etdikləri üçün həmin tezlikdən istifadə hüququna lisenziya götürürlər. Amma internet televiziyalar belə bir resursdan istifadə etmir.

İnternet televiziyaların tənzimlənməsi yalnız və yalnız həmin televiziyalara xüsusi nəzarət altına almaq məqsədi ilə həyata keçirilə bilər. Elə hesab etməyin ki, Azərbaycanda bu sahəyə nəzarət yoxdur, nəzarətin də müxtəlif formaları var. Biz şahidi olmuşuq ki, hansısa nüansdan kənara çıxanda ya onun saytı dağılır, ya yayımı yoxa çıxır və sairə. Bəli, bəzi dövlətlərdə internet televiziyaları həm qanunsuz, həm də məntiqsiz olaraq məhdudlaşdırılır. Amma bu cür praktikanı Azərbaycanda tətbiq etmək heç bir demokratik quruluşa əsas vermir".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016

# Zavodda baş verən yanğın niyə gizlədilir?

## Əməkdaşımız müəssisədəki alov püskürməsində ağır xəsarətlər alan işçiləri xəstəxanada tapdı

**Bakı şəhəri Nərimanov rayonu, Z.Bunyadov prospektində yerləşən "Baku Steel Company"də istehsalat qəzası baş verməsi ilə bağlı mətbuatda xəbər yayılıb. Report.az-ın yaydığı məlumatda bildirilir ki, alov püskürməsi nəticəsində zavodda çalışan 4 nəfər yanıq xəsarətləri alıb. Həmin şəxslər 1961-ci il təvəllüdlü İmran Qasımov, 1964-cü il təvəllüdlü Şahin Əliyev, 1973-cü il təvəllüdlü Kamil Məmmədov və 1987-ci il təvəllüdlü Rəşad Veyisovdur. Xəsarət alanların 5 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilməsi bildirilib.**

Hadisənin başvermə səbəbləri və digər bu kimi məsələlərlə bağlı rəsmi mövqe almaq üçün zavodun internet səhifəsində qoyulan telefon nömrəsi ilə əlaqə saxladıq. Özünü **Firuz** kimi təqdim edən zavodun əməkdaşı bildirdi ki, yayılan məlumatlar yalandır. Zavodda heç bir partlayış, yanğın olmayıb: "Səhərdən hər kəs zəng edir ki, zavoddakı partlayışla bağlı məlumat almaq istəyir. Bilmirik bu xəbər haradan çıxıb. Kim isə yalan məlumat yayıb. Heç bir partlayış, yanğın olmayıb. Yalan məlumatdır. Biz belə bir şey eşitməmişik".

4 nəfər xəsarət alanın olması ilə bağlı xəbərə gəlincə isə zavodun əməkdaşı söylədi ki, bu fakt da doğru deyil.

Onun bu cavabından sonra hadisənin detallarını öyrənmək üçün yanğında xəsarət alanların izinə düşdük. Üz tutduğumuz 5 saylı Şəhər Klinik Xəstəxanasında zavod əməkdaşının söylədiklərinin əksinin şahidi olduq...

Xəstəxanada öyrəndik ki, haqqında danışdığımız hadisə 29 sentyabr tarixində baş verib. Xəstələr də elə həmin tarixdə, günün ikinci yarısında xəstəxanaya qəbul olunub. Belə ki, baş verən istehsalat qəzası zamanı xəsarət alan 1961-ci il təvəllüdlü İmran Qasımov, 1964-cü il təvəllüdlü Şahin Əliyev, 1973-cü il təvəllüdlü Kamil Məmmədov hazırda reanimasiyadadırlar. Onların vəziyyətlərinin ağır olduğu bildirildi.

Digər yaralı, 1987-ci il təvəllüdlü Rəşad Veyisova isə hadisə baş verən gün ilkin yardım göstərildikdən sonra evə buraxılıb.

Xəstələrlə görüşmək istəsək də həkimlər onların vəziyyətlərinin ağır olduğunu əsas gətirərək, bunun mümkün olmadığını söylədilər.







Orada olduğumuz zaman "Baku Steel Company"nin əməkdaşlarını bir daha axtarıb, hadisə haqqında məlumat almaq istədik. Lakin öyrəndik ki, biz orada olduğumuz zaman zavodun əməkdaşları bizi görüb, ərazidən uzaqlaşıblar. Həmin ərəfədə zavodun iki nəfər nümayəndəsi xəstəxananın qarşısında olub, xəstələrin yaxınları ilə maraqlanıblar.

Reanimasiyada olan xəstələrin yaxın qohumları da 5 saylı Şəhər Klinik Xəstəxanasının yanıq şöbəsinin qarşısında idilər. Söhbət etdiyimiz **Şahin Əliyevin bacısı oğlu Amil Orucov** bildirdi ki, dayısının vəziyyəti getdikcə yaxşıya doğru dəyişir: "Ayın 29-da bura gətirdikləri zaman üzündə şiş var idi. Ağrıları çox idi. Getdikcə yaxşılaşır. Əvvəl yemək yemirdi, su içmirdi. İndi yavaş-yavaş yemək də yeyir. Zavodun işçiləri də bizimlə hər gün maraqlanırlar. Onların da nümayəndələri indi burada idi. Dərman almaq üçün harasa getdilər. Yəni bütün xərcləri qarşılayıblar. İşçilər də tez-tez gəlirlər, vəziyyətlə maraqlanırlar. Getdikcə durum yaxşıya doğru dəyişir".

**Xəstələrin qohumları bildirdilər ki, hadisəni eşidən kimi bura gəliblər. Ancaq yanğının hansı səbəbdən və necə baş verməsi barəsində məlumatları yoxdur:** "İstehsalat qəzasıdır deyirlər. Hər halda biz bu barədə dəqiq nə isə deyə bilmərik. Yaxınlarımızın yanıq xəsarətləri ağır olsa da həkimlər səylə çalışırlar. Həkimlərdən də hər hansı bir şikayətimiz yoxdur. Onlara necə lazımdırsa elə də baxırlar. Xəstələr danışa bilirlər. Yəni huşsuz vəziyyətində deyillər. Ancaq bizim özümüzü də heç onların yanına çox buraxmırlar. Ümid edirik ki, hər şey yaxşı olacaq".

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Xırdalanda iki qardaş dəm qazından boğulub öldü

**Xırdalan şəhərində bədbəxt hadisə baş verib. Criminal.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, oktyabrın 4-də Xırdalan şəhərində yaşayan İlham Musayev və qardaşı İntiqam evlərində dəm qazından zəhərlənərək ölüblər.**

## Ölkədə intiharlar ara vermir-daha üç nəfər canına qıydı

**Bakıda intihar hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, Bakıxanov qəsəbəsində, 1956-cı il təvəllüdlü Zəlimxan Bünyatov yaşadığı villada özünü güllələyib. O, hadisə yerindəcə keçinib.**

Bildirilir ki, hadisə baş verərkən Z.Bünyatovun ailə üzvləri evdə olub. O, "Vinçester" markalı tüfəngi götürərək hamam otağına keçib və burada özünə atəş açıb. Səsə gələn ailə üzvləri 60 yaşlı kişinin həyatını xilas edə bilməyiblər.

İntihar edən şəxs biznesmen olub və tikinti şirkətinə rəhbərlik edirmiş. Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır. Hacıqabul rayonunda da intihar hadisəsi baş verib. APA-nın xəbərinə görə, rayon sakini 1987-ci il təvəllüdlü Babayev Xəyyam Məmmədağa oğlu oktyabrın 4-də səhər yaşadığı evdə asılmış vəziyyətdə aşkarlanıb.

İntiharın səbəbi məlum deyil. Faktla bağlı Hacıqabul rayon Prokurorluğunda araşdırma aparılır.

Bərdədə isə 25 yaşlı qadın intihar edib.

APA-nın Qarabağ bürosunun xəbərinə görə, hadisə rayonun Qarədəmirçi kəndində qeydə alınıb.

**Ağdam rayon sakini Quliyeva Gülnar Xurşud qızı yaşadığı evdə ölmüş vəziyyətdə tapılıb.**

## Balakəndə ağır yol qəzası- 4 ölü

**APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə oktyabrın 4-də saat 05:00 radələrində Yevlax-Zaqatala-Gürcüstan sərhəd magistral yolunun 147-ci kilometrliyində, Balakən rayonunun Qazma kəndi ərazisindən keçən hissəsində baş verib.**

Şəxsiyyəti hələ ki məlum olmayan sürücünün idarə etdiyi "Pejo" markalı, 08 BF 305 dövlət nömrə nişanlı avtomobil yüksək sürətlə Balakən istiqamətində hərəkətdə olarkən idarəetməni itirməsi səbəbindən maşın yolun kənarındakı ağaca çırpılıb və zərbənin gücündən avtomobil bir neçə hissəyə bölünüb.

Hadisə zamanı sürücü, Balakən rayon sakini, 1987-ci il təvəllüdlü Anar Əlixan oğlu Saramanov, sərnişinlər - Balakən rayon sakinləri, 1985-ci il təvəllüdlü Əfqan Nəriman oğlu Doldalov, 1997-ci il təvəllüdlü Fazil Nurəddin oğlu Əzizov və 1998-ci il təvəllüdlü Musa Xəqani oğlu Orucov aldıqları xəsarətdən ölüblər.


## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**


### Elan

**Əzizova Almaz Mirzalı qızının adına olan Nizami rayon Qara Qarayev, bina 116, mənzil 51 ünvanında olan qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 219 (6540) 5 oktyabr 2016

**Baş bankir Elman Rüstəmov sentyabrın 26-da "Bank Standard"da kəskin vəziyyətin aradan qaldırıldığını desə də, cəmi 4 gün sonra Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının qərarı ilə həmin bankın lisenziyası ləğv edildi. Məhz bu hadisədən sonra Elman Rüstəmovun rəhbərlik etdiyi sektorda baş verənlərdən xəbərdar olub-olmaması məsələsi ictimaiyyətdə müzakirə olunmağa başladı. Çünki bu baş bankın yanlış çıxan ilk məlumatı deyil. Daha öncə də manatın məzənnəsi ilə bağlı belə yanılmaları olmuşdu. Son hadisə bir daha Elman Rüstəmova və onun şəxsində Mərkəzi Banka inamı sarsıtdı. Hazırda ictimaiyyətdə belə bir fikir var ki, Elman Rüstəmov banklara nəzarəti itirib, onun proseslərdən xəbəri yoxdur...**

# Elman Rüstəmov banklara nəzarəti itirib

## Baş bankir bank sektorunda baş verən proseslərdən xəbərsizdir…




**Bank-maliyyə məsələləri üzrə ekspert, vəkil Əkrəm Həsənov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Mərkəzi Bank banklara nəzarəti Nəzarət Palatası yaranan gündən itirib: "Hazırda bank nəzarətini Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirir. Bu o deməkdir ki, banklara bank lisenziyasını o verir və geri alır. Bankların fəaliyyətinə nəzarəti də palata həyata keçirir. Bu ilin mart ayından tendensiya belədir. Mərkəzi Bank hazırda yalnız pul siyasətini həyata keçirir, banklar üzərində heç bir səlahiyyəti yoxdur. Yalnız manatı buraxır və banklara kredit verir, bir də milli valyutanın qorunması ilə məşğuldur. Bu da əksər xarici ölkələrdə belədir. Ancaq ümumilikdə, palata, Mərkəzi Bank və Maliyyə Nazirliyi bir yerdə müzakirə edib qərar qəbul edirlər. Ancaq palata onların fikri ilə hərəkət etməyə məcbur deyil, qanuna görə bankların lisenziyasını ləğv etmək tamamilə MBNP-na xas olan səlahiyyətdir".

**"Bank Standard"a gəlincə, ekspert diqqətə çatdırdı ki, E.Rüstəmovun sentyabrın 26-dakı çıxışı bir növ Palataya təzyiq kimi qiymətləndirilə bilər:** "Bu bankın sağlamlaşdırılması üçün pulu Maliyyə Nazirliyi verməli idi. Buna görə də, maliyyə naziri bankın lisenziyasının ləğv edilməsini tövsiyə edə bilərdi. Mərkəzi Bank sədrinin sözü isə burada məsləhət xarakterli ola bilərdi. Sentyabrın 26-da baş verən hadisə onu göstərir ki, Elman Rüstəmova ümumiyyətlə məlumat vermirlər, bu işləri onsuz həll edirlər və burada qanunazidd heç nə yoxdur. Bəs, Elman Rüstəmov niyə sentyabrın 26-da belə çıxış etdi? Bank bankir faktiki olaraq özünə aid olmayan məsələ üzrə bəyanat verdi. Əlbəttə, ola bilər ki, bu onda vərdiş halını alıb, bank nəzarətinin əlindən çıxmasına öyrəşə bilmir. Ancaq məncə, burada başqa məsələ var. Elman Rüstəmov "Bank Standard"ın ləğv olunmasını istəmir. Sentyabrın 26-dakı çıxışı isə o bir növ Palataya və Maliyyə Nazirliyinə təzyiq formasında etdi. Bir növ belə bir xəbər göndərdi ki, mən ictimaiyyətə məlumat vermişəm, siz artıq o bankı ləğv edə bilməyəcəksiniz. Ancaq hər iki qurum bu qərarı verdi və Elman Rüstəmovu bir daha pis vəziyyətdə qoydular".

*Bəs, Elman Rüstəmov niyə "Bank Standard"ın ləğv olunmasını istəmirdi?*

Bu sualı cavablandıran Əkrəm Həsənov Elman Rüstəmovun prosesi gecikdirməklə məsuliyyətdən yayınmağa çalışdığını vurğuladı: "Əvvəla, ona görə ki, mart ayına qədər bank nəzarəti səlahiyyəti Mərkəzi Bankda idi. "Bank Standard" isə əmanətlərin həcminə görə, Beynəlxalq Bankdan sonra ölkənin ikinci bankı sayılır. Palata da bu aylar ərzində "Bank Standard"da çoxlu sayda qanun pozuntusu aşkarlayıb. Həmin pozuntular da məhz Mərkəzi Bankın dövründə olub və illərlə davam edib.

Belə çıxır ki, Mərkəzi Bank əmanətçilərin vəsaitlərini batırıb və həmin pulları Maliyyə Nazirliyi vasitəsilə qaytarmaq fikrindədir. Elman Rüstəmov bankın belə tezliklə ləğv olunmasını ona görə istəmirdi ki, bu halda açıq-aşkar günahkar olduğu hiss olunur. Həmin dövlət qurumları da yəqin ki, dövlət başçısına bu şəkildə məruzə edəcəklər. Bankda o qədər pozuntu var, vəziyyət elə ağırdır ki, Elman Rüstəmov banklara elə bərbad şəkildə nəzarət edib ki, onu sağlamlaşdırmaq artıq mümkün deyil. Amma bankı sağlamlaşdırmaq mümkün olsaydı, bir ildən sonra ləğv olunsaydı, o zaman məsuliyyəti Elman Rüstəmovun üzərinə qoymaq mümkün olmazdı. Yəni "Bank Standard"ın ləğv olunmamasına çalışmaqla baş bankir vaxt uzatmağa, məsuliyyətdən qaçmağa çalışırdı".

**Əkrəm Həsənov palatanın atdığı bu addımın həm onların, həm də dövlətin maraqlarına uyğun olduğunu qeyd etdi:** "Burada ikinci bir məqam da var. Bu da ondan ibarətdir ki, "Bank Standard"da son günlərə qədər sağlamlaşdırma prosesi gedirdi. O pulu isə Maliyyə Nazirliyi verirdi. Çünki bankların sağlamlaşdırılmasına pul büdcədən ayrılmalı idi. Yəni Elman Rüstəmov öz törətdiyi əməllərin mənfi nəticəsini Maliyyə Nazirliyinin vəsaiti ilə bağlamaq istəyirdi. Ancaq indiki halda bank müflis olubsa, əmanətləri Əmanətlərin Sığortalanması Fondu qaytarmalıdır, onlara isə vəsaiti Mərkəzi Bank verməlidir. Yəni indiki halda pul Mərkəzi Bankdan çıxacaq. Hesab edirəm ki, bu qərarda palatanın da, Maliyyə Nazirliyinin də öz marağı var. Palata istəyirdi ki, ölkə başçısına da, ictimaiyyətə də göstərsin ki, bankın müflis olması ondan asılı deyil, çünki cəmi 6 aydır fəaliyyət göstərir. Deməli, bu halda günahkar Mərkəzi Bankdır.

Maliyyə Nazirliyinin isə marağı odur ki, ilin sonudur, büdcədə pul azdır. Bu baxımdan Mərkəzi bankın vaxtilə buraxdığı səhvə görə pul vermək istəmir və düşünür ki, qoy bu pul elə Mərkəzi Bankdan çıxsın. Bu qərar palata ilə Maliyyə Nazirliyinin şəxsən Elman Rüstəmova qarşı atdığı addımdır. Ancaq bu həm də dövlət maraqlarına uyğundur. Hər iki qurumun bu qərarı verməklə büdcəni əlavə xərcdən xilas ediblər. Sağlamlaşdırma zamanı Maliyyə Nazirliyi ancaq əmanətçilərin borcunu qaytarmalı deyildi, bununla yanaşı digər borcları da ödəməli idi. Orada yalnız əmanətlərin həcmi 520 milyondur, bankın başqa borcları da var, müxtəlif şirkətlərin hesablarında pullar var, bankın xarici banklara borcu var. Yəni azı 700-800 milyon manat borcdan söhbət gedir. Palata həmçinin onu da ortaya çıxarıb ki, bankın verdiyi kreditlər də faktiki olaraq batıb. Batmış bir bankın sağlamlaşdırılmasına nə üçün pul ödənilməlidir. Bu mənada Maliyyə Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatasının verdiyi qərar doğru qərardır".

❑ **Nərgiz LİFTİYEVA**

## Bakıda supermarketin direktor müavini özünü asaraq intihar edib



**Bakı şəhəri, Yasamal rayonunda intihar hadisəsi baş verib.**

Hadisə Landau küçəsində qeydə alınıb. Həmin küçədəki evlərdən birində yaşayan 52 yaşlı Arif Quliyev özünü yataq otağında asaraq intihar edib.

Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə iş açılıb, istintaq aparılır.

Qeyd edək ki, A.Quliyev "Səbət" Marketlər Şəbəkəsinin marketlərindən birində direktor müavini vəzifəsində çalışıb. ("Report")

## Azərbaycan BƏƏ ilə qarşılıqlı vizasız rejimə keçə bilər

**Azərbaycan BƏƏ-yə hər iki ölkənin vətəndaşları üçün qarşılıqlı vizasız rejim tətbiq etməyi təklif edir.**


Daşqın Şikarov

Bunu "Trend"ə Azərbaycanın BƏƏ-dəki səfiri Daşqın Şikarov deyib.

Səfirin sözlərinə görə, hazırda diplomatik və xidməti pasportlara malik şəxslər üçün vizasız rejim mövcuddur, 2015-ci ildən isə BƏƏ vətəndaşları sadələşdirilmiş viza sisteminin əsasında Azərbaycana gəlirlər: "İndi Azərbaycan tərəfi həm Azərbaycan, həm də BƏƏ vətəndaşları üçün vizasız rejim tətbiq olunmasını təklif edir. BƏƏ hökuməti artıq ilkin razılıq verib və hazırda məsələyə baxılır".

## DTX və XKX-yə dövlət qulluğu statusu verilir



**Azərbaycanda Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinə dövlət qulluğu statusu verilir.**

Milli Məclisdən verilən məlumata görə, bununla bağlı Azərbaycan prezidentinin təqdimatı ilə "Dövlət qulluğu haqqında" qanuna dəyişiklik təklif olunur. Qanunun 2-ci (Dövlət qulluğu) maddəsindən "milli təhlükəsizlik" sözləri çıxarılır. Eyni zamanda "dövlət təhlükəsizliyi xidməti, xarici kəşfiyyat xidməti" sözləri daxil edilir.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub, oktyabrın 14-də müzakirəyə çıxarılacaq.

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyevin fərmanı ilə 2015-ci il dekabrın 14-də Milli Təhlükəsizlik Nazirliyi ləğv edilib, yerində Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılıb. (APA)

## Ermənistanda vergilər azaldıldı

**Ermənistan parlamentinin 4 oktyabr iclasında yeni Vergi kodeksi layihəsi üçüncü oxunuşda qəbul edilib.**



"Qafqazinfo" xəbər verir ki, sənədin leyhinə 78 deputat səs verib, 19 nəfər əleyhinə olub.

Səsverməyə qədər yeni kodeksə parlamentin müxalifətdən olan "İrs", "Çiçəklənən Ermənistan", "Erməni dirçəlişi" fraksiyaları etirazlarını bildiriblər.

Müstəqil deputat Edmon Marukyan bəyan edib ki, yarım il sonra Ermənistan özünün kredit öhdəliklərini yerinə yetirə bilməyəcək, bu kodeks bu məsələni həll etməyəcək, əksinə, problemlər yaradacaq.

Yeni Vergi Kodeksinə görə, gəlir vergisinin dərəcəsini azaltmaq, dividentlərə tətbiq edilən verginin ləğv edilməsi nəzərdə tutulub.

Bundan başqa, kazinoların dövlət rüsumu 2,5 dəfə - 400 min dollardan 1,052 milyon dollara qədər artırılıb. Bu, verginin azaldılması ilə azalan gəliri kompensasiya edəcək.

YENİ MÜSAVAT

Son səhifə

*N 219 (6540) 5 oktyabr 2016*



## Makiyajdan istifadə etməyən qadın... karyerasına önəm verir

**Qadınlar müxtəlif səbəblərə görə kosmetik vasitələrdən imtina edirlər. Əgər kosmetikadan imtina ciddi səbəblərə dayanmırsa, o zaman həmin qadının özünə az dəyər verdiyini demək olar. Belə xanımlar qadınlığın tərəfdarı olmur və özlərinə fikir vermirlər. Səbəbləri odur ki, belə xanımların ya az vaxtları olur, ya da tənbəldirlər. Ətraf mühitdən də çox şey asılıdır. Əgər qız uşaqlıq vaxtında yalnız oğlanlarla dostluq edibsə, sonradan kosmetikadan istifadə ona qəribə gəlir. Kişi kollektivində çalışan qadınlar hərdən «daxillərindəki naz-işvəni» unudurlar. Makiyajın yoxluğu feminizmin də əlaməti ola bilər. Kişi ilə eyni səviyyədə olmaq istəyi zərif cinsin bəzi nümayəndələrini kosmetikadan imtina etməyə sövq edir. Bir qayda olaraq, belə qadınlar karyeranı həyatlarında ən dəyərli meyar sayırlar. Dodaq boyasından və tuşdan imtina edirlər. Xüsusilə də eqosentrik qadınlar belə addım atırlar. Belə qadınlar hesab edirlər ki, bütün Yer kürəsi onların ətrafında fırlanır və gözəl görünmək onlar üçün də vacib deyil. «Mən necə varamsa, eləyəm» prinsipilə yaşayan qadınlar da kosmetikaya maraq göstərmirlər. Onlar təbii obraza üstünlük verir və hesab edirlər ki, ətrafdakılarla dürüst olmaq və xarici görkəmi bəzəməklə kişiləri aldatmamaq lazımdır.**

# Evli olduğu qadın nəvəsi çıxdı

**ABŞ-ın Florida ştatında ağlasığmaz bir hadisə baş verib. Özündən 44 yaş kiçik bir qadınla evli olan adam keçmiş ailə albomuna baxanda şok həqiqətlə üzləşib. Həmin həqiqət isə qadının onun bioloji nəvəsi olmasıdır.**



"İndependent" qəzetinin xəbərinə görə, 68 yaşlı milyonerlə 24 yaşlı həyat yoldaşı bu həqiqəti üç ay öncə fərq ediblər. Hadisə belə baş verib: ər-arvad köhnə ailə albomuna baxırlarmış. Adam ilk həyat yoldaşından olan və illərdir üzünü görmədiyi oğlunun şəklini arvadına göstərərək, "şəkildəki böyük oğlumdur" deyib. Qadın isə "bu adam mənim atamdır" söyləyib. Hər ikisi bu gerçək qarşısında şoka düşsələr də, boşanmağı düşünmürlər. Cütlük bir evləndirmə agentliyində tanış olub. Kişi həyat yoldaşı ilə evlilik anı barədə bunları deyib: "Onun şəklini ilk dəfə gördüyüm zaman özümü qəribə hiss etdim, dejavu oldum(daha öncə bu anı yaşama hissi). Tanımırdım, amma ailəmdən biri kimi idi sanki".

**Maddi problemlər ucbatından 2009-cu ildə ikinci evliliyini də bitirən adam iki il sonra böyük lotereya qazanaraq milyoner olub.**

# Bağçada əli cızıldı, bir neçə günə öldü



**2 uşaq anası olan Luçina Smit bağçada işləyərkən əlinin üstünü cızıb. "Daily Mail"də yayımlanan xəbərə görə, 43 yaşındakı qadın bir neçə gün sonra qan zəhərlənməsindən həyatını itirib.**

Bağça qəzasının üzərindən bir neçə gün keçdikdən sonra çiyni ağrımağa başlayan Luçina bu kiçik cızığı həkimə göstərməyə qərar verib. Həkim ona bir ağrıkəsici yazıb və fizioterapiyaya yollayıb. 3 gün sonra ağrısı daha da kəskinləşən qadın təcili qan testindən keçib. Test nəticəsində qadının qan zəhərlənməsindən əziyyət çəkdiyi üzə çıxıb. Damar içi antibiotik verilən qadın 2 gün sonra dünyasını dəyişib.

Sepsis xəstliyinin digər adı da qan zəhərlənməsidir. Bir infeksiya və ya Lusindadad olduğu kimi bir yara ilə başlayan, ölümcül bir xəstəlikdir. Əgər bir uşaqda və ya böyükdə aşağıdakı simptomlar görünərsə, onu xəstəxanaya aparmaq lazımdır:

*- Bədənin anormal bir şəkildə soyuması;*

*- Sürətli nəfəs alıb vermək, ya da nəfəs alanda çətinliyə düşmək;*

*- Aşırı halsızlıq;*

*-12 saat boyunca idrarını etməmək;*

*- Dərinin rəng dəyişdirməsi, mavi və ya həddən artıq solğun rəng alması.*





**QOÇ - Sağlamlıqla bağlı müəyyən problemləriniz baş qaldırdığından özünüzü qoruyun. Orqanizminizi gümrahlaşdırmaq üçün mümkün tədbirləri həyata keçirin. Saat 14-dən sonra uzaq yola çıxmaq olar.**

**BUĞA - Sağlamlığınızla bağlı çətinliyinizi dəf edə bilsəniz, qarşıya qoyduğunuz planları reallaşdıra biləcəksiniz. Hətta nahardan sonra varlanma ehtimalınız da var. Uzaq yola çıxmayın.**

**ƏKİZLƏR - Vaxtınızın əsas hissəsini sevgi amilinə həsr edin. İkili görüşlər, əyləncəli gəzintilər sizə fərəh gətirəcək. Saat 15-18 arası maliyyə problemlərinizin həlli üçün uğurlu vaxtdır.**

**XƏRÇƏNG - Ümumi vəziyyətiniz gərgin olduğundan bütün vacib işləri təxirə salın. Yaxşı olar ki, uzunmüddətli planlarınızı bir daha konkretləşdirəsiniz. Təzə xəbərlər də mümkündür.**

**ŞİR - Saat 16-ya qədər ümumi ovqatınızda gərginlik müşahidə olunduğundan əsas gücünüzü istirahətə yönəltməlisiniz. Bu gün sizə soyuq və duzlu qidalar qəbul etmək məsləhət deyil.**

**QIZ - Yeni görüş və danışıqlar üçün uğurlu təqvimdir. Özünüzü təmkinli və dözümlü aparın ki, sövdələşmələrin nəticəsi xeyrinizə olsun. Özünüzü yerli-yersiz tərifləməkdənsə, susun.**

**TƏRƏZİ - Bu gözəl təqvimi uğurlu keçirəcəksiniz. Səhər saat 11-dən etibarən bir neçə sevindirici prosesin iştirakçısına çevriləcəksiniz. Yeni işgüzar təkliflər alsanız, imtina etməyin.**

**ƏQRƏB - Maliyyə problemlərinə görə özünüzü üzməyin. Çünki ulduzların düzümü bu gün deyilən istiqamətdə sevinəcəyinizi bildirir. Həmkarlarınızla münasibətləri mümkün qədər qaydasına salın.**

**OXATAN - Bürclərin əksəriyyətində olduğu kimi bu gün sizin də səhhətinizdə narahatlıq gözlənilir. Qan təzyiqi ilə bağlı problemləriniz mümkündür. Çalışın ki, pəhriz saxlayasınız.**

**OĞLAQ - Səhhətinizlə bağlı bəzi xoşagəlməzlikləri nəzərə almasaq, günün əsas hissəsini rahat şəraitdə başa vuracaqsınız. Axşama yaxınsa gələcəyiniz üçün önəmli olan xəbər eşidəcəksiniz.**

**SUTÖKƏN - İşgüzar sövdələşmələrdə iştirak etmək üçün olduqca səmərəli gündür. Müzakirələr apardığınız həmsöhbətləriniz sizə xeyirli olan fikirlər söyləyəcək. Qərarlarınızda qətiyyətli olun.**

**BALIQLAR - Ailə üzvlərinizlə mübahisələriniz gözlənilir. Belə neqativ hallardan yayınmaq üçün davranışlarınızda nəzakətli olun. Nahardan sonra şəxsi büdcənizdə irəliləyişlər mümkündür.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Məşhur moda jurnalı manekenlərdən adi qadınlara keçdi



**"Vogue" jurnalının Britaniya versiyası dünyada ilk dəfə olaraq çəkiliş üçün qeyri-professional modellərdən istifadə edir. Bu qərarı nəşrin redaktoru Aleksandr Şulman qəbul edib. Çəkilişlərdə tarixçi-arxitektor Şumi Boss, xeyriyyəçi Brita Fernandes, kreativ direktor Ceyn Hatçison iştirak ediblər. Onlardan heç biri daha öncə model biznesində iştirak etməyib. Bununla da Şulman müxtəlif peşə qrupundakı qadınlara moda dünyasının bir üzvü olmağa imkan yaradıb.**

"Vogue" jurnalının yeni nömrəsi 6 oktyabrda dərc olunacaq. İlk sayda aktrisa Emili Blantın fotosu dərc olunacaq. Nəşrin redaktoru qadın aktrisa seçməsinin səbəbini belə izah edib ki, həmin aktrisa bu günə qədər ən çox sıradan qadın rollarını ifa edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.